## Əhməd İsmayılov: "Media subyektlərinə imtiyazlar paketi ilə bağlı müzakirələr gedir"



**Media subyektlərinə imtiyazlar paketi ilə bağlı müzakirələr gedir.**

Bu fikirləri Medianın İnkişafı Agentliinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov dünən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu və İnsan hüquqları komitələrinin birgə iclasında "Media haqqında" qanun layihəsinin müzakirəsi zamanı deyib.

Onun sözlərinə görə, bu qanun qəbul edildikdən sonra güzəştlərlə bağlı qanunvericilik layihəsi hazırlanacaq və daha sonra müzakirəyə təqdim olunacaq.

## Hacı Zeynalabdin Tağıyevlə bağlı serial çəkiləcək



**Hacı Zeynalabdin Tağıyevlə bağlı serial çəkiləcək.**

Bunu mədəniyyət naziri Anar Kərimov "Mədəniyyət Nazirliyi: 2021-ci il üzrə Hədəflər və Nəticələr" mövzusunda keçirilən mətbuat Konfransında deyib.

*O bildirib ki, serial Mədəniyyət Nazirliyi və Bakı Media Mərkəzi birgə çəkəcək.*


❒ № 239 (5521), 2021-ci il

Qiymıəti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 29 dekabr 2021-ci il (çərşənbə)




# Hələ icazə verilməyəcək

### Çünki yas mərasimlərinə nəzarət etmək çətindir

**"Toylarda vaksin pasportlarına, ara məsafəsinə, maska tələbinə nəzarət etmək daha asandır".**

Bunu brifinqdə Prezidentin köməkçisi Şahmar Mövsümov deyib.

O bildirib ki, yas mərasimlərində bu prosedurlara nəzarət etmək çətindir:

"Böyük insan selinin qarşısında COVID-19 pasportu yoxlamağın nə qədər mümkün olduğunu aydınlaşdırmaq lazımdır. Buna görə də hazırda yas mərasimlərinə icazə verilməsi gündəmdə deyil.

"Omicron" ştamı ilə bağlı məsələ bitdikdən sonra bu məsələyə baxıla bilər. İndi yaslara icazə verilməsi virusun daha geniş yayılmasına səbəb ola bilər".



## Akif Aşırlı "İlin qəzet Baş redaktoru" sorğusunun qalibi oldu

**"Utro.az saytında "İlin qəzet Baş redaktoru" nominasiyalı sorğu başa çatıb. Sorğunun nəticələrinə görə, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı "İlin qəzet Baş redaktoru" sorğusunun qalibi olub.**

Sorğunun keçirilməsi və nəticələri ilə bağlı danışan "Utro.az" saytının baş redaktoru, Rusdilli Jurnalistlər Assosiasiyası İctimai Birliyinin sədri Habil Ağazadə virtual keçirilən sorğuda, sadəcə, Media İnkişaf Agentliyindən maliyyə yardımı alan qəzet baş redaktorlarının iştirak etdiyini deyib.

(səh.3)

## Ərdoğan Türkiyənin hədəfini açıqladı

### "Məqsədimiz dünyanın ən güclü 10 iqtisadiyyatı sırasına daxil olmaqdır"



**"Hökumətin işləyib hazırladığı iqtisadi alətlər ölkəni xilas etdi. Ankaranın məqsədi dünyanın ən güclü 10 iqtisadiyyatı sırasına daxil olmaqdır".**

"RİA Novosti" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) və Türkiyə Elmlər Akademiyasının (TÜBA) elmi mükafatlarının təqdimetmə mərasimində çıxışı zamanı deyib.

"Ölkəni düçar olduğu qeyri-sabitlikdən çıxardıq. (report) Yolumuz investisiyalar, məşğulluq, istehsal, ixrac və artım yoludur", - Ərdoğan bildirib.

# Münasibətlər qorunacaq

### Vladimir Putin MDB ölkələri ilə əməkdaşlıqdan məmnunluğunu bildirib



**Dünən Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.**

Əvvəlcə MDB dövlət başçıları birgə foto çəkdiriblər. Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib. Sonra koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. MDB dövlət başçıları qeyri-rəsmi nahar ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

MDB dövlət başçılarının Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən qeyri-rəsmi görüşündə müzakirə etdikləri bəzi mövzular məlum olub. Dövlət başçıları qarşılıqlı ticarətin artırılması tədbirləri barədə fikir mübadiləsi aparıblar. Eləcə də sammit iştirakçıları yola salmağa hazırlaşdığımız ildə əməkdaşlıq məsələləri barədə yekunları, həmçinin qarşılıqlı sərfəli partnyorluğun möhkəmləndirilməsi və inkişafını müzakirə ediblər.

(səh.2)



## 20 milyon dollar ayırıb

### ABŞ Ukrayna sərhədlərini möhkəmləndirir

**ABŞ Ukraynanın Rusiya və Belarus ilə sərhədlərinin möhkəmləndirilməsinə 20 milyon dollar ayırıb. Bu barədə "Report" "RİA Novosti"yə istinadən xəbər verir.**

Ukraynanın Dövlət Sərhəd Xidməti layihənin il ərzində həyata keçiriləcəyini açıqlayıb.

*Qeyd edək ki, ABŞ Prezidenti Cozef Bayden dekabrın 27-də 2022-ci il üçün müdafiə büdcəsini imzalayıb. Sənədə görə, Ukrayna Silahlı Qüvvələrinə dəstək məqsədilə 300 milyon ABŞ dollarının ayrılması nəzərdə tutulur.*

# "Omicron" aşkarlansa, məhdudlaşdırmalar olacaq

### Qonşu ölkələrdəki vəziyyətin Azərbaycanda da baş verməsi mümkündür

**"Respublikada koronavirusla bağlı vəziyyət stabil qiymətləndiririk".**

Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib. O qeyd edib ki, ümumi olaraq respublikada vəziyyət stabildir və nəzarət altındadır:

"Bugünkü stabil vəziyyəti vaxtında qəbul edilmiş doğru qərarlara borcluyuq. Yeni il bir ailə bayramıdır, gəlin bir-birimizi qoruyaq, gigiyenik qaydalara riayət edək.

(səh.3)



## Rusiya XİN: Moskva Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına kömək edib



**Rusiya Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına kömək edib.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin 2021-ci ilin yekunları ilə bağlı yaydığı icmalda bildirilib.

"Rusiya Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına, o cümlədən Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası üzrə ikitərəfli Komissiyanın yaradılması və habelə, Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin açılması kimi vəzifələrin həllinə yardım edib. Dekabrın 10-da Moskvada "3+3" formatında Məşvərət Regional Platformasının (üç Cənubi Qafqaz dövləti - Azərbaycan, Ermənistan, Gürcüstan, həmçinin, üç qonşu ölkə - Rusiya, Türkiyə, İran) hələlik Gürcüstanın iştirakı olmadan təsis iclası keçirilib", - deyə Rusiya XİN-in məlumatında qeyd olunub. (apa)

## Tablo qorxulu deyil

### 376 nəfər koronavirusa yoluxub, 16 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 376 yeni yoluxma faktı qeydə alınıb, 887 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 16 nəfər vəfat edib.



## Erməni baş nazir özünü sığortalamağa çalışır

### Paşinyanın Araiklə, guya, "müharibə" vəziyyətində olması hiylədir

(səh.4)

## 2022-ci ildə Avropa İttifaqı ilə saziş imzalanacaq

### Vüqar Bayramov: "Tərəflər arasındakı sazişdə şərtlərin çoxu razılaşdırılıb"



(səh.4)





# Münasibətlər qorunacaq

## Vladimir Putin MDB ölkələri ilə əməkdaşlıqdan məmnunluğunu bildirib

**Dünən Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib.**

Əvvəlcə MDB dövlət başçıları birgə foto çəkdiriblər.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

Sonra koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

MDB dövlət başçıları qeyri-rəsmi nahar ediblər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

MDB dövlət başçılarının Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən qeyri-rəsmi görüşündə müzakirə etdikləri bəzi mövzular məlum olub.

Sputnik Azərbaycan-ın məlumatına görə, dövlət başçıları qarşılıqlı ticarətin artırılması tədbirləri barədə fikir mübadiləsi aparıblar. Eləcə də sammit iştirakçıları yola salmağa hazırlaşdığımız ildə əməkdaşlıq məsələləri barədə yekunları, həmçinin qarşılıqlı sərfəli partnyorluğun möhkəmləndirilməsi və inkişafını müzakirə ediblər.

"Rusiya MDB ölkələri ilə mövcud münasibətləri gələcəkdə də qoruyub-saxlamaq niyyətindədir. Bundan öncə də münasibət saxlamışıq, bundan sonra da belə olacaq. Ancaq bu rejimdə toplaşmağımıza səbəb olan əsas məsələlərdən biri daha dərin müzakirə olunmasına ehtiyac duyulan koronavirus pandemiyası ilə birgə mübarizəmizdir", - Rusiya Prezidenti Vladimir Putin bildirib.

Görüşün gündəliyinə həmçinin bir sıra MDB ölkələrinin iqtisadi, mədəni və humanitar sahələrdə birgə layihələrinin müzakirəsi də daxil olunub.

Sammit iştirakçıları beynəlxalq və regional məsələləri, koronavirus pandemiyasının nəticələri ilə mübarizədə birgə səyləri, bioloji təhlükəsizliyin təmin olunmasını müzakirə ediblər.

Sonuncu mövzu ilə bağlı Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Rusiya tərəfinə təşəkkürünü bildirərək qeyd edib ki, Rusiyanın koronavirus əleyhinə "Sputnik-V" peyvəndi onun ölkəsində xəstəliyin yayılmasının qarşısının alınmasında əsas rol oynayıb.

Türkmənistan Prezidenti Qurbanqulu Berdımuxamedov da öz növbəsində MDB üzvlərinə koronavirus pandemiyası ilə mübarizədə göstərdiyi köməyə görə Rusiyaya təşəkkür edib.

Belarus Prezidenti Aleksandr Lukaşenko isə alimlərin koronavirusla bağlı vəziyyətə dair proqnozlarının həyata keçmədiyindən təəssüfləndiyini bildirib.

# 728 şəxsin Rusiyadan quru yolla Azərbaycana keçidi təmin edilib



**Mövcud COVID-19 pandemiya rejimi ilə əlaqədar ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən, Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən yerüstü sərhəd yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və soydaşlarımız üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin yanında Operativ Qərargah müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq 2021-ci ilin 20-27 dekabr tarixlərində növbəti sərhəd buraxılışları təşkil edilib.**

Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, sərhəd buraxışlarının həyata keçirilməsi üçün Xarici İşlər, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasında xidməti ezamiyyətdə olublar. İşçi heyətin üzvləri sərhədi keçmək üçün gözləyən 766 nəfər həmvətənlimizi qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

"Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən olunmuş gündəlik kvotaya uyğun olaraq, qeydiyyata alınmış 766 nəfərdən 728 şəxsin 2021-cil ilin 22-27 dekabr tarixlərində (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin edilib.

Ümumilikdə, 2021-ci ilin 29 yanvar - 27 dekabr tarixləri arasında qrup halında 35 sərhəd keçidi olmaqla 4217 həmvətənlimizin təxliyəsi təmin edilib", - məlumatda deyilir.

# Türkiyə bölgədə çox vacib oyunçudur

## İrakli Qaribaşvili: "Bizə çox yaxın, dost və qardaş olan Türkiyə ilə münasibətlərimizi daha da möhkəmləndirməli və genişləndirməliyik"



**Türkiyə Gürcüstanın strateji tərəfdaşı və bölgədə çox vacib oyunçudur. Bizə çox yaxın, dost və qardaş olan Türkiyə ilə münasibətlərimizi daha da möhkəmləndirməli və genişləndirməliyik.**

Bu sözləri Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ölkənin "İmedi" televiziyasındakı çıxışı zamanı söyləyib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla münasibətlərindən danışan İrakli Qaribaşvili deyib: "Bizim həm birbaşa, həm də telefonla çoxlu görüşlərimiz və söhbətlərimiz olub. Münasibətlərimiz səmimidir".

"Gürcüstan-Türkiyə münasibətləri qorunub saxlanılmalı, möhkəmləndirilməli və dərinləşdirilməlidir. Mən bu istiqamətdə əlimdən gələn hər şeyi edirəm və şadam ki, Türkiyə Prezidenti də eyni əhvaldadır", - deyə İ.Qaribaşvili vurğulayıb.

Gürcüstan hökumətinin başçısı deyib ki, regionda vasitəçilik olmadan ticari-iqtisadi münasibətləri inkişaf etdirmək, enerji və digər layihələri reallaşdırmaq mümkün deyil. Bu istiqamətdə bizim çoxlu ambisiyalı planlarımız var. Hesab edirəm ki, bu gün bu münasibətləri möhkəmləndirmək üçün çox yaxşı şans mövcuddur.



# MDB dövlət başçılarının sammiti müsbət hadisədir

## Bu görüş Azərbaycan-Ermənistan münasibətlərinin qaydaya salınması baxımından növbəti bir mərhələ olacaq

**Prezident İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının görüşündə iştirak etmək üçün dekabrın 28-də Sankt-Peterburq şəhərinə səfər edib. Sankt-Peterburq şəhərinin Pulkovo-2 hava limanında dövlət başçısını Leninqrad vilayətinin qubernatoru Aleksandr Drozdenko və digər rəsmi şəxslər qarşılayıb.**

*Maraqlıdır, görüşdə hansı aktual məsələlərin müzakirəsi gözlənilir?*

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli hesab edir ki, Prezidentin sammitdəki iştirakı əslində təkcə MDB dövlət başçılarının sammiti olaraq nəzərdə tutulmayıb.**

O, "Şərq"ə görüşdə müzakirəsi ehtimal olunan başlıca məsələlərdən danışarkən bildirib ki, biz hazırda sammit öncəsi və ona doğru gətirib çıxaran yola diqqət etməliyik: "Ötən həftələrdə Paşinyanın Qarabağa yönəlik ciddi bəyanatları var idi. Eyni zamanda bəzi önəmli hadisələr baş vermişdi. Bilirsiniz ki, Soçi görüşündə qəbul edilən qərarlar əsasən ilin sonuna qədər kommunikasiyaların açılması və sərhəd delimitasiyası ilə bağlı idi. 14 dekabrda Brüsseldə də yeni niyyətlər ortaya qoyuldu, xeyli ciddi razılaşmalar əldə edildi. Bunları nəzərə alsaq, deyə bilərik ki, görüşdə növbəti dəfə ciddi müqavilələrin imzalanması gündəmdədir".

**Ə.Əlibəyli sammitdə Azərbaycan və Ermənistanın delimitasiya və demarikasiya ilə bağlı yekun mövqe ortaya qoyacağının da istisna edilmədiyini diqqətə çatdırıb:** "Ola bilsin, kommunikasiyalarla bağlı yekunlaşmış bir qərar var. Eləcə də sülhməramlıların nəzarətində olan bölgələrə, misal üçün, fransız siyasətçinin qeyri-qanuni səfəri və bu kimi təxribatlar da müzakirə mövzusu ola bilər. Zənnimcə, bunlara da aydınlıq gətiriləcək".

Analitikin qənaətincə, MDB dövlət başçılarının bu görüşü Azərbaycan- Ermənistan münasibətlərinin qaydaya salınması baxımından növbəti bir mərhələ ola bilər: "Belə mövzuların müzakirəsinin nəticəsi konkret olaraq açıqlana və ya gizli qapılar arxasında da ola bilər".

**Günəş Mərd**



# Bakıda 25 məktəb direktoru işdən çıxarılıb

**Bu il Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki bir sıra ümumi təhsil müəssisələrinə yeni direktor təyinatları həyata keçirilib, bəzi direktorların əmək müqaviləsinə xitam verilib, həmçinin bir sıra məktəb direktorlarının iş yerləri dəyişdirilib.**

Bildirilib ki, 2021-ci təqvim ili ərzində BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrinə 33 nəfər direktor vəzifəsinə işə təyin olunub, 16 direktorun iş yeri dəyişdirilib.

117 məktəb direktorunun müddətli əmək müqaviləsinin müddəti uzadılıb.

Çalışmanın yaş həddinə çatmış 42 direktorla müddətli əmək müqaviləsi bağlanıb.

Müddətli müqavilə əsasında fəaliyyət göstərən 2 məktəb direktoru daimi əsaslarla direktor vəzifəsinə təyin edilib.

Ümumilikdə 25 məktəb direktoru ilə bağlanmış əmək müqaviləsinə xitam verilib.

2 ümumi təhsil məktəbinin (152, 172) fəaliyyəti bərpa edilib.

# Bu yol başlanğıcını "Zəfər Yolu"ndan götürür

## Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir

**Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə davam etdirilir.**




Füzuli-Hadrut avtomobil yolu Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın cari il martın 16-da işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarına səfəri zamanı təməli qoyulub.

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli bu yol başlanğıcını "Zəfər Yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlı olacaq. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21 metr, yolun hərəkət hissəsinin eni isə 14 metr təşkil edəcək.

Avtomobil yolunda hazırda torpaq işləri icra olunur. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Artıq ilk 8 kilometr hissədə torpaq işləri və yol yatağının tikintisi 50 faiz icra olunub.

12 km uzunluğa malik Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının inşası ilə yanaşı yol boyu atmosfer suların ötürülməsini təmin etmək məqsədi ilə müxtəlif diametlərə malik suötürücü boruların, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də layihə üzrə aparılır. Bundan başqa yolun 6.7 kilometrində, "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində iki aşırımlı avtomobil körpüsünün inşası nəzərdə tutulub.

İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 N-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC ilə subpodratçı olaraq yerli şirkət "Azvirt" MMC birgə icra edir. Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

# Türkiyədən Cənubi Qafqaza yeni avtomobil tuneli açılır

## "Pırınkayalar" tuneli yeni nəqliyyat arteriyasına çevriləcək

**Bu gün Türkiyə ilə Cənubi Qafqaz ölkələri arasında yeni avtomobil tuneli açılır.**

"Report" "Anadolu"ya istinadən xəbər verir ki, Türkiyənin şərqində açılacaq "Pırınkayalar" tuneli yeni nəqliyyat arteriyasına çevriləcək.

Tunel Ərzurum vilayətinin Uzundərə rayonu ilə Artvin şəhərini birləşdirəcək və 2 246 m uzunluğa malikdir.

Açılış mərasiminin iştirakçılarına Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans formatında müraciət edəcək.

Yeni tunel Türkiyə-Gürcüstan sərhədi istiqamətində yolun vacib hissəsini təşkil edəcək. Bununla da Anadolunun şimal-şərqində yerləşən dağlıq rayonları vasitəsilə yük daşımaları asanlaşacaq.

"Hökumətin işləyib hazırladığı iqtisadi alətlər ölkəni xilas etdi. Ankaranın məqsədi dünyanın ən güclü 10 iqtisadiyyatı sırasına daxil olmaqdır".

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurasının (TÜBİTAK) və Türkiyə Elmlər Akademiyasının (TÜBA) elmi mükafatlarının təqdimetmə mərasimində çıxışı zamanı deyib.

"Ölkəni düçar olduğu qeyri-sabitlikdən çıxardıq. Yolumuz investisiyalar, məşğulluq, istehsal, ixrac və artım yoludur", - Ərdoğan bildirib.

"Şərq" qəzeti VÖEN: 1300414651 "Şərq" Media Qrup MMC VÖEN: 13005414651 çevrilərək "Şərq" Media Qrup MMC yenidən təşkil olunduğunu elan edir. Kreditorlar iki ay ərzində tələbini Bakı şəhəri, Yasamal rayonu Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı 7-ci mərtəbədə yerləşən ünvanına bildirə bilərlər.

# "Omicron" aşkarlansa, məhdudlaşdırmalar olacaq

## Qonşu ölkələrdəki vəziyyətin Azərbaycanda da baş verməsi mümkündür




**"Respublikada koronavirusla bağlı vəziyyəti stabil qiymətləndiririk". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib. O qeyd edib ki, ümumi olaraq respublikada vəziyyət stabildir və nəzarət altındadır:**

"Bugünkü stabil vəziyyəti vaxtında qəbul edilmiş doğru qərarlara borcluyuq. Yeni il bir ailə bayramıdır, gəlin bir-birimizi qoruyaq, gigiyenik qaydalara riayət edək. Hər bir xəstəliyin profilaktikası onun müalicəsindən daha yaxşıdır. Ona görə də bir yerə çox toplanmayaq". Yaqut Qarayeva deyib ki, mutasiyalar viruslara xasdır, bu proses davamlı olacaq və dayanması mümkün deyil: "Bəzən bir insan iki fərqli ştamla yoluxarsa, onun orqanizmində bu ştamların göstəriciləri olacaq. Həmin ştamların insan orqanizmində özlərini necə aparacağını tədqiqatlar göstərəcək".

**"Omicron" ştamına xas hansısa xüsusiyyətlər qeyd olunmayıb"**

**Yaqut Qarayevanın sözlərinə görə, Azərbaycanda yayılan və təyin olunan COVID növü məhz "Delta"dır:** "Bu gün ölkəmizdə "Delta" ştamını aşkar edə bilirik. Bizim reaktivlərin də buna imkanı var. O ki qaldı uşaqlar arasında yayılan xəstəliyə, mövsümi olaraq payız və qış mövsümündə uşaqlar arasında yüksək qızdırma, boğaz ağrısı və öskürəklə müşahidə olunan xəstəliklər hər zaman yayılır. Burada bir çox respirator viruslar, infeksiyalar var. Amma əgər bu təyin olunmursa, o demək deyil ki, bu mütləq "Delta" ştamıdır. Əgər uşaqlarda SARSCOV2 virusu olsa, bizdə aparılan həm PCR testləri, həm də ekspres testlərlə belə onun təyin olunması mümkündür və necə ki, təyin olunur". Yaqut Qarayeva deyib ki, koronavirus xəstəliyində rast gəlinən xüsusiyyətlərə bütün respirator viruslarda rast gəlinir: "Son tədqiqatlara görə, mədə ağrısı və qusmaya "Omicron" ştamına yoluxanlarda da rast gəlinir. Bu gün "Omicron" ştamına xas hansısa xüsusiyyətlər qeyd olunmayıb".

**"Ölkə üzrə 22 milyon 255 mininci vaksin vurulub"**

**Səhiyyə nazirinin birinci müavini, səhiyyə naziri vəzifəsini icra edən Teymur Musayev deyib ki, səyahət edən vətəndaşlardan COVID sertifikatları və neqativ PCR test istəyi tələblər sırasındadır. O, vaksinasiyaya aktiv qoşulan vətəndaşlara təşəkkür edib:** "Azərbaycanla həmsərhəd olan ölkələrdə artıq "Omicron" ştamı qeydə alınıb və yayılmaqdadır. Azərbaycana da "Omicron"un gəlməsi və yayılması zamana bağlı məsələdir. Ştam ölkəmizdə peyda olsa və yayılmağa başlasa, müəyyən qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərə əl atmalı olacağıq". Teymur Musayev bildirib ki, vaksinasiya kampaniyası uğurla həyata keçirilir: "Ölkə üzrə 11 milyon 255 mininci vaksin bu gün vurulub. 1 milyon 255 mininci şəxs isə bu gün buster doza vaksin vurdurub". T.Musayev qeyd edib ki, qarşıdan bayramlar gəlir: "Son iki həftədir ki, xarici medialarda COVİD-19-a qarşı müalicədə istifadə olunacaq yeni dərmanların təqdimatı olub. Bu məsələ Azərbaycan səhiyyə orqanları tərəfindən diqqətlə izlənilir. Bəzi ölkələrdə artıq o dərmanlar qeydiyyatdan keçib. Bəzi ölkələr hətta o dərmanların tədarükünə də başlayıb. Yetərincə sübuta yetirilmiş elmi-tibbi sübutlar toplandıqdan sonra həmin dərmanların Azərbaycana gətirilməsi nəzərdən keçiriləcək. Son zamanlar yeni dərmanların təqdimatının olması onun vaksinasiyanın yerini tutacağı ilə bağlı fikir formalaşdırıb. Bu, yanlışdır". T.Musayev bildirib ki, COVİD-19-un müalicəsində istifadə edilən 1-ci faza virus replikasiyasını dayandıran dərmanlar və 2-ci faza dərmanlar ölkəmizdə istifadə olunur". O deyib ki, bunlar vaksinasiyanı əvəz edən deyil, dəstəkləyən dərmanlardır: "Yeni dərmanlar da vaksini əvəz etməyəcək". O deyib ki, "TURKOVAC"ın Azərbaycanda 3-cü faza klinik sınaqlarına müsbət rəy verilib: "Hazırda Türkiyədən İşçi qrupun gəlməsi gözlənilir".

**"Omicron" ştamının yayılması narahatlıq doğurur"**

**Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov deyib ki, "Omicron" ştamının yayılması narahatlıq doğurur.** O, diqqətə çatdırıb ki, son həftələr ərzində bəzi Avropa ölkələrində məhdudiyyətlər tətbiq olunur. Digər ölkələrdə tətbiq edilən məhdudiyyətlərin Azərbaycanda tətbiq edilməsi ilə bağlı qərar yoxdur. Azərbaycanda vaksinasiya uğurla aparılır. Son aylarda yoluxma sayları da aşağı doğru gedir. Amma digər ölkələrdə olan problemlərin Azərbaycanda da meydana gəlməsi mümkündür. Vəziyyəti nəzarətdə saxlamağın yeganə yolu vaksinasiyadır. Vaksinasiya 2 dozadan sonra kifayət qədər güclü qoruyucu qüvvəyə malikdir. Ancaq həmin tədqiqatlara görə vaksinin 2-ci dozasından 4 ay sonra immunitet zəifləyir və buster dozanın vurulması ciddi tövsiyə edilir. Bu proses Azərbaycanda da gedir. Bu prosesdə daha çox qoruyucu və ehtiyatlı yanaşmanı tətbiq etmək məqsədilə, ikinci dozadan sonra qoruyucu immunitetin azalmasını nəzərə alaraq hazırda istifadə olunan COVİD pasportlarının - yəni vaksinasiya və immunitet sertifikatının vaxtına məhdudiyyət qoyulur. Gələn il fevral ayının 15-dən sonra COVİD pasportlarının müddəti 6 ay müəyyən edilir. İkinci dozadan 6 ay sonra COVİD pasportu öz qüvvəsini itirmiş olacaq. Vaxtı keçmiş COVİD pasportu ilə bəzi məkanlara daxil olmaq mümkün olmayacaq". Şahmar Mövsümov vurğulayıb ki, stabil vəziyyət vaksinasiya nəticəsində əldə edilib: "Vaksinin infeksiyadan qoruması ilə bağlı əlimizdə kifayət qədər ciddi məlumatlar var". Prezidentin köməkçisi vaksin sertifikatlarının qarşılıqlı tanınmasına aydınlıq gətirib: "Bir çox ölkələrdə vaksin sertifikatları tətbiq olunur. Vaksin sertifikatlarının qarşılıqlı tanınması üçün İşçi Qrup yaradılıb. Azərbaycanda tətbiq olunan "Sinovac" vaksini Avropanın əsas sertifikasiya keçirən qurumu tərəfindən qəbul edilib. Ancaq təbii ki, ölkədən ölkəyə fərq var".

**"Yaslarla bağlı məhdudiyyət qüvvədədir"**

Prezidentin köməkçisi quru sərhədlərin açılması məsələsinə münasibət bildirib: "Quru sərhədləri hələ də bağlıdır. Amma insanlar xüsusi icazələrlə quru sərhədindən keçə bilir. Hələlik quru sərhədlərinin açılması hələlik müzakirə edilmir". Prezidentin köməkçisi bildirib ki, restoranlarda gecə 12-yə qədər olan məhdudiyyətin bu gün qorunub saxlanması daha məqsədəuyğundur: "Restoranlarla bağlı olan məhdudiyyət bizdə gecə saat 12-yə qədərdir. Bəzi ölkələrdə isə bu qadağa saat 10-a qədərdir".

**"Tibbi maska ilə bağlı yumşalma gözlənilmir"**

**Şahmar Mövsümov vurğulayıb ki, tibbi maska ilə bağlı yumşalma gözlənilmir:** "Əlləri yumaq, maska taxmaq, sosial məsafəni qorumaq vaksin olunanda belə əhəmiyyətini itirmir. Bu qaydalara əməl etmək vacibdir". Prezidentin köməkçisi qeyd edib ki, buster dozadan sonra vaksin sertifikatı müddətsiz olacaq: "Bu, əldə olan son epidemioloji məlumatlara əsaslanır. Ola bilsin ki, gələcəkdə buster dozadan sonra da hansısa müddət məhdudiyyəti tətbiq edilsin. Amma hazırda buster dozadan sonra vaksin sertifikatı müddətsizdir".

**İsmayıl**

# Akif Aşırlı "İlin qəzet Baş redaktoru" sorğusunun qalibi oldu



**"Utro.az saytında "İlin qəzet Baş redaktoru" nominasiyalı sorğu başa çatıb. Sorğunun nəticələrinə görə, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı "İlin qəzet Baş redaktoru" sorğusunun qalibi olub.**

Sorğunun keçirilməsi və nəticələri ilə bağlı danışan "Utro.az" saytının baş redaktoru, Rusdilli Jurnalistlər Assosiasiyası İctimai Birliyinin sədri Habil Ağazadə virtual keçirilən sorğuda, sadəcə, Media İnkişaf Agentliyindən maliyyə yardımı alan qəzet baş redaktorlarının iştirak etdiyini deyib.

Sayt rəhbərinin sözlərinə görə, 18 qəzet baş redaktoru arasından 7,18 faiz səslə (92 səs - red) "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı sorğuda birinci yeri tutub. Sorğuda ümumi iştirakçı sayı 1284 nəfər olub və 2 həftə davam edib. Dekabrın 14-də start verilən sorğuya ayın 28-də yekun vurulub".

# Ermənistan beynəlxalq hüquq normalarını pozub

## Gələn il Azərbaycanın iddiaları gündəmə gələcək



**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov 2021-ci ilin yekunlarına dair mətbuat konfransı keçirib. Müzakirə zamanı deyib ki, gələn il Ermənistana qarşı bir neçə məsələ üzrə iddia qaldırılacaq:**

"Yaxın müddətdə bir neçə konvensiyaya uyğun, əsasən ekologiya, ətraf mühitə dəymiş ziyan, Azərbaycanın enerji resurslarından qanunsuz istifadəyə dair Ermənistanı məsuliyyətə cəlb etmək üçün Azərbaycan beynəlxalq arbitrajlara müraciət edəcək. Bu, 2022-ci ildə qarşıda duran əsas vəzifələrdəndir".

**Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə "Şərq"ə bildirib ki, gələn il Azərbaycanın mədəni irsinin, tarixi abidələrinin dağıdılması ilə bağlı iddialar qaldırıla bilər:** "Bundan başqa, bir milyona yaxın mina insan qətlinə səbəb olub. İndiyə qədər ərazilərin minalardan təmizlənməsi yönündə böyük işlər görülür. Bildiyimiz kimi, Ermənistan Azərbaycan ekologiyasına çox böyük zərbə vurub. Ağacları kəsib, çayları zəhərləyiblər.

Həmçinin Gəncədə, Bərdədə, Tərtərdə hərbi cinayətlər törədiblər. Beynəlxalq hüquq normalarını kobud şəkildə pozublar. Ona görə də bu istiqamətlərdə tədbirlər davam etdirilir".

**Sücayət Mehti**



# Sualın cavabı uzaqda deyil

## Kimdir separatçıbaşını və bir neçə agenti Paşinyanın üstünə qaldıran?

**Azərbaycan tərəfindən adı "qara siyahı"ya salınan Rusiya Dövlət Dumasının deputatı Vitali Milonov növbəti dəfə Qarabağa qanunsuz səfər edib.**

Ölkəmizə qarşı qərəzli mövqeyi ilə seçilən ermənipərəst deputat Xankəndidə separatçıların başçısı Araik Arutyunyanla görüşüb. Üstəlik, rusiyalı deputat qanunsuz əməlini sosial şəbəkə hesablarında paylaşaraq səfərdən "məmnunluq" duyduğunu qeyd edib. Bununla da kifayətlənməyən deputat Xankəndidə erməni məktəblilər üçün Yeni il şousu təşkil edib və baş rolu özü ifa edib. Şaxta baba libasını geyinən Milonov ermənilər üçün hədiyyə paylayıb. Vitali Milonovun Azərbaycana qarşı mövqeyi və ermənilərə olan "isti" münasibəti hər kəsə bəllidir. Lakin ekspertlərin fikrincə, bu şəxs ilk növbədə öz ölkəsinin parlamentində təmsil olunduğunu unutmamalıdır. Artıq dəfələrlə bu cür təxribatlara əl atan deputat regionda sülhməramlı missiya həyata keçirən Rusiya dövlətinin də imicinə xələl gətirir.

**Millət vəkili Sahib Alıyev vurğulayıb ki, Fransada rus agenti kimi tanınan Valeri Pekres Qarabağa necə buraxılıbsa, Vitali Milonov da elə buraxılıb. Deputat budəfəki səfərin zamanına diqqət çəkib:** "Ermənistanın Baş naziri Nikol Paşinyan ermənilərə Qarabağın Azərbaycanın ayrılmaz parçası olması ilə razılaşmaqdan başqa digər yollarının qalmadığını anlatdı. Yəni Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi "Azərbaycanın torpaq bütünlüyü heç vaxt danışıqlar predmeti olmayıb və olmayacaq" sözlərini təkrarladı. Bunun ardınca separatçıbaşı Araik Arutyunyan onu kəskin tənqid etdi. Çünki Arutyunyan Paşinyanın sərəncamı ilə Ermənistandan hər ay aldığı 30 milyon dolların kəsilməsi ilə hansı vəziyyətə düşəcəklərini yaxşı bilir. Kimdir separatçıbaşını və bir neçə agenti Ermənistanın baş nazirinin üstünə qısqırdan? Bu sualın cavabı Rusiya Dumasının hakimiyyət partiyasından olan deputatı Vitali Milonovun Xankəndinə səfərində və Arutyunyanla yan-yana şəkil çəkdirməsindədir".

**İsmayıl**

# Erməni baş nazir özünü sığortalamağa çalışır

## Paşinyanın Araiklə, guya, "müharibə" vəziyyətində olması hiylədir

**Həftəsonu Ermənistanda siyasi gündəmə Baş nazir Nikol Paşinyanın Qarabağa dair açıqlamaları damğa vurdu. Paşinyan sələflərinin Qarabağa dair apardığı danışıqların detallarını Ermənistan cəmiyyətinə açıqlayıb.**

O qeyd edib ki, aparılan danışıqlar prosesi ərzində Qarabağda yaşayan azərbaycanlıların hüquqları məsələsi heç vaxt heç bir hökumət və ya danışıqlar aparan şəxs tərəfindən mübahisələndirilməyib. Onun sözlərinə görə, "Dağlıq Qarabağ Muxtar Vilayəti" danışıqlar prosesində heç vaxt sırf erməni subyekti kimi qəbul edilməyib: "Danışıqların məzmunu sovet dövründə "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə yaşayan azərbaycanlıların "Dağlıq Qarabağın" statusunun müəyyən edilməsində iştirak hüququnu təsbit edir". Paşinyan vurğulayıb ki, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyinə qədər Ermənistan tərəfi buna etiraz etməyib. Baş nazirin açıqlamaları Ermənistan cəmiyyətində soyuq duş effekti yaradıb və müxtəlif reaksiyalara səbəb olub. Xüsusən, Qarabağdakı separatçıların başı Araik Arutyunyan Paşinyanın sözlərinə qarşı çıxıb. Terrorçu başı deyib ki, "Qarabağ ermənilərinin müqəddəratının həlli ilə bağlı qərarları yalnız onlar özləri verə bilərlər". Separatçıya görə, ermənilər üçün Qarabağın "müstəqilliyi" əsas hədəf hesab olunur və Azərbaycanın tərkibində hər hansı status qəbuledilməzdir. Ermənistanın "Hraparak" nəşri də yazıb ki, Nikol Paşinyanın "Qarabağın statusu Azərbaycanın Konstitusiyasına uyğun həll edilməlidir" açıqlamasından sonra Xankəndidəki separatçı-terrorçu rejimdə fövqəladə vəziyyət yaranıb: "İndi əsas müzakirə mövzusu budur ki, Arutyunyan Paşinyanın Qarabağdan imtina prosesini sona çatdıracaq, yoxsa mübarizə aparacaq". Qəzet Qarabağdakı separatçı-terrorçu rejimin daxilində baş verən proseslərə də diqqət çəkib və Samvel Babayanla Araik Arutyunyan arasında qarşıdurma olduğunu yazıb. Ekspertlər düşünürlər ki, Paşinyan bu açıqlamaları ilə "Qarabağ klanı" da daxil olmaqla öz siyasi rəqiblərini vurur. Digər tərəfdən isə Ermənistan cəmiyyətini regionda yeni yaranmış reallığa hazırlayır. Ermənistanın keçmiş prezidenti Robert Koçaryan bazar ertəsi keçirdiyi mətbuat konfransında Paşinyanın bəyanatına istinadən deyib ki, Ermənistan Qarabağdan "əlini üzüb".



"Azərbaycan bu oyunlara məhəl qoymadan öz addımlarını ciddi və sərt şəkildə atmalı, hesabladığı məntiqi sonluğa çatmalıdır"

**Siyasi şərhçi Azər Qasımov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Nikol Paşinyan istəməsə belə həqiqətləri dilə gətirməklə müharibədəki məğlubiyyətdə özünü sığortalamağa çalışır.** Politoloq xatırladıb ki, hələ hakimiyyətə gələndə parlamentdəki çıxışında işğal olunmuş torpaqları geri qaytarmaqdan danışarkən çoxları ona kəskin etiraz etmiş, bunun mümkün olmadığını demişdilər: "Lakin Ermənistan müharibədə məğlub oldu. İndi Paşinyan həmin fikirlərə bənzər ifadələr səsləndirməklə məlum və qaçılmaz sonluqla bağlı özünü sığortalamağa çalışır. Bilir ki, prosesin sonunda ermənilərin taleyi ən yaxşı halda Azərbaycanın konstitusiyasına uyğun nizamlanacaq. Buna Ermənistanın təsir göstərmək imkanı yoxdur. Paşinyanın sözləri Qarabağdan ümidi kəsmək kimi dəyərləndirilsə də, əslində baş nazir mövcud reallıqda gücü çatmadığı məsələni daha maraqlı qüvvələrin üzərinə atmağa cəhd göstərir. Məncə, bu, ermənilərin yeni oyunudur. Hələ müharibədən əvvəl ermənilər Qarabağda yeni "rəhbər" seçəndə, Araikin Paşinyanın adamı olduğunu, onların Sarkisyan-Koçaryan cütlüyünün, yəni "Qarabağ klanı"nın adamına qarşı mübarizə apardığını hamı bilirdi. İndi Paşinyanın Araiklə, guya, "müharibə" vəziyyətində olması hiylədir və prosesi çıxmaza soxmağın ermənisayaq üsuludur. Təbii ki, burada Rusiyanın rolu danılmazdır".

A.Qasımov vurğulayıb ki, Azərbaycan üçün bunlar keçilmiş mərhələdir: "Bu, bizə problemin başladığı 80-cı illərin sonunu xatırladır. Ermənilər Qarabağa "müstəqillik" istəməyə başlamışdılar. Ruslar və Ermənistan "bu məsələ bizlik deyil, Qarabağ xalqı özü istəyir" deyərək yaxalarını kənara çəkirdilər. Hətta müharibə başlayana kimi nə Qarabağın "müstəqilliyini" tanıdılar, nə də onlara dəstək verdiklərini boyunlarına aldılar. Məsələ o yerə çatdı ki, Azərbaycan tərəfi Ermənistanın Qarabağ müharibəsində iştirakını sübut etmək üçün faktlar önə sürməklə məşğul oldu. Deyilənləri nəzərə alaraq, Azərbaycan bu oyunlara məhəl qoymadan öz addımlarını ciddi və sərt şəkildə atmalı, hesabladığı məntiqi sonluğa çatmalıdır".

**İsmayıl Qocayev**

İsmayıl Qocayev

# "Layihə tənqidə dözür"

## Əhməd İsmayılov: "Əsas qanunun qəbulu deyil, onun düzgün tətbiqi vacibdir"

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin və İnsan hüquqları komitəsinin birgə iclasında "Media haqqında" qanun layihəsinin növbəti müzakirəsi təşkil olunub. Müzakirədə Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov, Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov, deputatlar və media qurumlarının rəhbərləri iştirak ediblər.**

Milli Məclis sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli deyib ki, məqsəd üçüncü oxunuşdan əvvəl qanun layihəsinin yenə də geniş müzakirəsini təşkil etməkdir. Komitə rəhbəri bildirib ki, qanunu yenidən Venesiya Komissiyasına göndərməyin heç bir mənası yoxdur. Biz Avropa Şurasının üzvüyük. Bu qanunda da insan hüquqları baxımından hər hansı məhdudlaşdırıcı məqamlar yoxdur. Qanunu siyasi arqumentlərlə müdafiə etməyə ehtiyac yoxdur. Biz hüquqi arqumentlərlə çıxış edirik. "Media haqqında" qanun layihəsi bundan öncəki iki qanunun əsasında hazırlanıb və həmin qanun layihələri də Venesiya Komissiyası ilə əməkdaşlıq şəraitində hazırlanıb. Yeni qanunda da hər hansı məhdudlaşdırıcı məqamlar yoxdur. Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik. Belə təəssürat yaradılmamalıdır ki, insan hüquqları sahəsində əməkdaşlıqdan geri çəkilirik. Bu əməkdaşlıq davam edir və bu qanun da onun ən yaxşı nümunələrindən biridir".

**"APA Media Group"un baş direktoru Vüsalə Mahirqızı vurğulayıb ki, yeni qanunla mediada şirkətləşmə mərhələsinə keçməyə daha çox nail olacağıq.** Onun sözlərinə görə, qanun layihəsi, ümumiyyətlə, media sahəsini əhatə etmir, media subyektləri üçün hüquqi bazadır. Baş direktor qeyd edib ki, qanun layihəsinin geniş ictimai müzakirəsi keçirilib: "Açığı, son illərdə hansısa qanun layihəsinin bu qədər müzakirə olunduğunu xatırlamıram. Hesab edirəm ki, sosial mediada cəmiyyətin bütün tərəfləri qanun layihəsinə fikrini bildirib, müzakirələrdə iştirak etdilər".

Baş direktor qeyd edib ki, "Media haqqında" qanunla bağlı iki yol var: "Birinci yol budur ki, qanun olmur, özünütənzimləmə yolu seçilir. Təcrübə göstərir ki, bu hələ çox tezdir. Əgər qəbul ediriksə ki, qanun olmalıdır, o zaman indiki qanunun daha çox məhdudlaşdırıcı olduğunu qəbul etməliyik. Hazırkı qanun keçmişdir, yenilənməlidir". V.Mahirqızı bəyan edib ki, qanun layihəsinin fəlsəfəsi media subyektlərinin bazar oyunçuları kimi formalaşmasına, şirkətləşməyə imkan verir: "Əgər kimsə sərbəst media fəaliyyəti ilə məşğul olmaq istəyirsə, youtuber, bloger olmaq istəyirsə, qanun buna mane olmur. Hazırda mediaya vergi tətilləri, vergi güzəştlərinin verilməsi ilə bağlı müzakirələr gedir. Dövlət Vergi Xidmətinin ilk sualı budur ki, vergi güzəştlərini kimə verəcəyik? Dövlət bilməlidir ki, hansı media subyektlərinə vergi güzəştlərini verəcək, bu vəsait hansı həcmdə olmalıdır və bu büdcəyə nə qədər vəsaitə başa gələcək? Buna görə də Media Reyestri olmalıdır. Bəziləri mediaya güzəştlərin verilməməsinin tərəfdarı ola bilər, onlar media reyestrində olmaya bilər. Hesab edirəm ki, mediaya güzəştlərin verilməsi lazımdır. Necə ki hazırda inkişafa ehtiyacı olan müxtəlif sahələrə güzəştlər var, eynilə də medianın inkişafa ehtiyacı var. Qanunun fəlsəfəsi də buna yönəlib. Yavaş-yavaş mediada şirkətləşmə ənənəsi artmalıdır".





> "Qanun qəbul olunduqdan sonra da tətbiqi ilə bağlı görüşlər keçirərək media subyektləri ilə müzakirələr aparmağı düşünürük"

Başqa ölkələrin təcrübəsindən danışan media rəhbəri diqqətə çatdırıb ki, media biznes sahəsidir: "Mən qanunu bu baxımdan dəstəkləyirəm. Çox yaxşı oldu ki, internet televiziyaları, platforma yayımçıları ilə bağlı təklif qəbul olundu. Yalnız platforma üzərindən yayımlanmaq istəyənlər lisenziya üçün müraciət edə bilərlər. Çox yaxşıdır ki, qanunun bəzi tələbləri imperativ xarakter daşımır. Tələblər reyestrə düşmək və qanun çərçivəsində fəaliyyətlə məşğul olmaq istəyənlər üçündür. Qanunun dili də çox yaxşıdır".

Baş direktor deyib ki, qanunun icrasında söhbət daha çox niyyətdən gedir: "Bu gün burada olan media rəhbərləri də, cəmiyyət də, dövlət də bir çox hallarda medianın indiki durumundan narazıdırlar. Halbuki, biz hazırda Venesiya Komissiyasının dəstəklədiyi və çox yüksək qiymətləndirdiyi qanunla işləyirik. Yəni məsələ qanunun kağız üzərindəki forması yox, onun tətbiqi və burda nümayiş olunan niyyətdir".

**Real TV-nin rəhbəri Mirşahin Ağayev vurğulayıb ki, "Media haqqında" yeni qanun layihəsi əvvəlki qanundan qat-qat liberaldır:** "Burada söhbət təkcə qanun layihəsindən deyil, çox ciddi informasiya təhlükəsizliyindən gedir. Bu qanun layihəsi təkcə Azərbaycan mediasının müstəqilliyini yox, Azərbaycan dövlətinin müstəqilliyini müdafiə edən bir qanun olmalıdır. Bəziləri bu qanun haqqında yanlış fikir formalaşdırmağa çalışırlar. Onlar istəmirlər ki, biz güclü olaq. Onlar istəyirlər ki, köhnə mühitdə qalaq. Onlar bilirlər bu qanun qəbul olunduqdan sonra meydanda at oynada bilməyəcəklər".

**Azvision.az saytının baş redaktoru Vüsal Məmmədov deyib ki, qanunun daha sərt olmasını istərdi:** "Məsələn, qanun layihəsində qeyd oluna bilərdi ki, dövlət qurumları Media Reyestrində olmayan jurnalistlərin sorğularına cavab verməyə borclu deyil".

**MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, normativ hüquqi baza yenilənmədən islahatların aparılması mümkün deyil:** "Düşünürük ki, layihə tənqidə dözür. Əsas qanunun qəbulu deyil, onun düzgün tətbiqi vacibdir. Qanun qəbul olunduqdan sonra da tətbiqi ilə bağlı görüşlər keçirərək media subyektləri ilə müzakirələr aparmağı düşünürük". Ə.İsmayılov informasiya agentliyi ilə bağlı məsələlərin layihədə əksini tapdığını vurğulayıb. Onun sözlərinə görə, informasiya agentliyi kimi tanınmaq üçün bağlanmış müqavilələri təqdim etmək lazım olacaq.

**"Report" informasiya agentliyinin direktoru Fuad Hüseynəliyev Vüsalə Mahirqızının fikirləri ilə razı olduğunu söyləyib:** "Bu qanun layihəsinin çox geniş şəkildə müzakirəsi keçirilib. Ona görə də hesab edirəm ki, qanun indiki konseptual variantda bizim üçün çox faydalı olacaq. Gələcəkdə də hansısa məsələlər ortaya çıxdıqca düzəlişlər əlavə ola bilər".

**"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rövşən Məmmədov qanun layihəsi ilə bağlı müzakirələrin təşkilini dəstəkləyib:** "Bu həm də Milli Məclisin mətbuata münasibətini ortaya qoyur. Etiraf etmək lazımdır ki, Azərbaycan jurnalistikası özünün yaxşı günlərini yaşamır. Bunun da səbəbi qanunvericilik çərçivəsində tənzimlənməmə ilə bağlıdır. Bu günlərdə Milli Məclis qarşısında aksiya zamanı biri özünü milli televiziyanın əməkdaşı kimi təqdim edirdi. Araşdırmamız zamanı məlum oldu ki, onun AzTV-yə heç bir aidiyyəti yoxdur, hansısa milli televiziya adı altında bir saytdan söhbət gedir. Digər tərəfdən, niyə Media Reyestrinin yaradılmasından qorxuruq? Əgər bir insan jurnalistikaya şantaj deyil, normal fəaliyyət sahəsi kimi yanaşırsa, nədən qorxur? Bu qanun sosial şəbəkələri tənzimləmir. Ancaq biz gələcəkdə insan hüquq və azadlıqları qorunmaqla, sosial şəbəkələrin fəaliyyətinin tənzimlənməsi ilə bağlı qanun qəbul etməliyik".

Parlamentin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev qanun layihəsində heç bir məhdudlaşdırıcı norma olmadığını vurğulayıb. A.Vəliyev nəzərə çatdırıb ki, qanun layihəsində informasiya agentliklərinin informasiyasından istifadə hallarını nəzərdə tutan 13.3-cü maddə yeni redaksiyada verilir.

**Sonda çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc dövlətin medianın güclü olmasında maraqlı olduğunu söyləyib:** "Media haqqında" qanun layihəsi medianın azadlığını gücləndirəcək. Dünənə qədər media mühitinin qüsurlu olduğundan şikayətlənən və bu gün fərqli mövqedən çıxış edənlər xarici dövlətlərin maliyyə vəsaitlərindən asılı olanlardır. İndi də deyirlər ki, reyestr olmasın. Bu gün 20 minə qədər jurnalist var. Ancaq kim deyə bilər ki, nə qədər siyasi sahədə və digər sahələrdə ixtisaslaşmış jurnalistlər var?! Yeni media konsepsiyası, media ilə bağlı yeni hüquqi aktlar bizi gözləyir. 44 gün hərbdə bizə uğur gətirdi, bu zəfəri media məkanında da davam etdirmək lazımdır. Bu qanunu müdafiə etmək üçün hansısa siyasi arqumentlərə ehtiyac yoxdur, qanun özü-özünü müdafiə edir".

# Ölkənin aparıcı siması şou-biznes adamları ola bilməz

## Metroda təbrikləri alim, sənətkar, qəhrəmanımız, hətta generalımız da səsləndirə bilərdi



> "Bir sərnişinin alimdən, həkimdən, pedaqoqdan təbrik eşitməsi bu ixtisaslara hörməti və marağı artırar. Gənclər də görər ki, bu ölkədə elm adamlarına hörmət qoyulur, onlar da elm ardınca gedər"

Məlahət Rzayeva

**Bakı metropoliteni maraqlı layihə həyata keçirir. Adət etdiyimizin əksinə, stansiyaların adlarını, növbəti dayanacaq haqqında məlumatı tanınan şəxslər səsləndirir. Eyni zamanda həmin şəxslər sərnişinləri Dünya Azərbaycanlılarının həmrəylik Günü və Yeni İl münasibətiylə də təbrik edirlər.**

Onların səsi, demək olar tanışdır. Metronun uğultusu bir qədər mane olur, amma ümumən səsləri tanımaq çətin deyil. Həm də bu şəxslər özlərini də təqdim edir. Səhv etmirəmsə, ötən il də bu "təbrik çarxı" fırlanırdı. Bu il də eyni səs yazılarıdır. Layihə, dediyim kimi maraqlıdır. Lakin həm də düşündürücüdür. Nə barədə? Hər stansiyada sərnişinləri məlumatlandıran və təbrik edənlər incəsənət və şou-biznes sahəsinə aid olanlardır: Bəhram Bağırzadə, Murad Dadaşov, dicey Fateh, Aqil M.Quliyev, Tural Əsədov, Oleq Əmirbəyov, Nərgiz Cəlilova, Miri Yusif... Mənzil başına çatanadək səsini eşitdiyim bu şəxslərdir. Bəlkə başqa şəxslər də təbriklərdə iştirak edir. Lakin eşitdiyim qədər 1 nəfərin səsinin 2 dəfə təkrarlanması halı da var. Ola bilsin, daha uyğununu tapa bilməyiblər, ondandır. Burada kiminsə şəxsiyyətinə yönəlik qərəz axtarmağa dəyməz. Bu insanlar incəsənət, musiqi, aparıcılıq, şou-biznes sahəsində tanınırlar. Amma niyə məhz şou-biznes, incəsənət adamları? Bu ölkədə başqa peşə sahibləri arasında tanınan, məşhur olan insanlar yoxdurmu? Nədənsə, həmişə şou-biznes adamları önə çıxarılır. Metro müxtəlif ixtisas, peşə sahiblərinin, uşağından qocasına qədər müxtəlif yaş qruplarının daim istifadə etdiyi nəqliyyatdır. Yaşlı insan üçün dicey Fateh, yaxud Aqil M.Quliyev, ya da Miri Yusif nə qədər maraqlı personadır? Məncə, Yeni il təbriki, xüsusilə də Dünya Azərbaycanlılarının Həmrəylik Günü şou motivli hadisə, şou motivli əlamətdar gün sayılmaz. Hər iki bayram şənlik, şuxluq, sevinclə bərabər həm də ciddi mesajların verilməsi gərəkən tarixlərdir. Bu adamlar onsuz da efirin daimi qonaqlarıdır. Murad Dadaşov isə artıq tele-şirkət rəhbəridir. Metro kimi insanların kütləvi istifadə etdiyi nəqliyyatda təbrikləri səsləndirmək üçün şou-biznesə aid olmayan tanınmış şəxsləri də seçmək olar. Məsələn, ölkə üçün faydalı iş görmüş bir alim, həkim, hakim, pedaqoq, mühəndis... Təbrikləri səsləndirənlərdən biri niyə də Vətən müharibəsinin iştirakçısı, qəhrəman əsgər, zabit, hətta general olmasın?!. Ya da sıravi bir polis əməkdaşı. Məgər ictimai asayişin keşiyində dayanan polis əməkdaşı müğənnidən, diceydən daha az gərəklidir? Metroda səslənən təbriklər insanda belə təəssürat yaradır ki, ölkənin tanınmış və təbrik etməyə layiq şəxsləri ancaq aktyorlar, müğənnilərdir, ölkənin siması da diceylər, ya da prodüserlərdir. Deyəcəksiz, alimi kim tanıyır? Deməli, tanıtmaq lazımdır. Məhz belə layihələr çərçivəsində. Əyləncə də mənalı və məqsədə yönəlik olmalıdır.

**Sosioloq Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında qeyd etdi ki, bəzən üzərində dayanmağa lüzum görülməyən məsələlər əslində ciddi xarakter daşıyır:**

- Ola bilsin, kiməsə bu məsələ lazımsız görünsün və "təbrikdir, cəmiyyətdə tanınan adamlar təbrik səsləndirir, burada hansı mənfi hal var?" deyilsin. Amma etirazlarda da ciddi həqiqət var. Müğənnilərin, incəsənət adamlarının, şou-biznes nümayəndələrinin cəmiyyətin aparıcı qüvvəsi kimi önə çəkilməsi halı uzun müddətdir davam edir. Elə bir vəziyyət yaranıb, sanki cəmiyyətin siması bu adamlardır. Hesab edirəm ki, bu, təhlükəli tendensiyadır. Cəmiyyətin aparıcı qüvvəsi ilk növbədə elm adamları, insanların ehtiyac duyduğu, cəmiyyəti idarə edən şəxslər olmalıdır. Düşünmürəm ki, hansısa elm adamı təbrik səsləndirməyə razılıq verməsin. Yenə də məhz elm adamlarını, müxtəlif peşə sahiblərini önə çəkmək lazımdır. Bir sərnişinin alimdən, həkimdən, pedaqoqdan təbrik eşitməsi bu ixtisaslara hörməti və marağı artırar. Gənclər də görər ki, bu ölkədə elm adamlarına hörmət qoyulur, onlar da elm ardınca gedər. Şou-biznes önə çəkildikcə, cəmiyyət də şouya meyillənir. Müxtəlif peşə sahibləri önə çəkilmirsə, cəmiyyətin sanbalı da görünmür. Cəmiyyətin sanbalı, çəkisi yalnız incəsənət adamları və şou-bizneslə ölçülməməlidir. Sosial-fəlsəfi yanaşma səhv olduqda mənəvi dəyərlərə ziyan vurur. Cəmiyyətimiz özünü sanballı təqdim etməlidir. Bunun üçün yalnız şou-biznes nümayəndələrindən istifadə etmək, onları önə çəkmək yanlışdır.

**Bakı Metropoliteni QSC mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov isə "Şərq"ə açıqlamasında sözügedən layihənin 2019-cu ildə hazırlandığını dedi:**

- Məqsəd bayram öncəsi və bayran günlərində sərnişinlərin ovqatını yüksəltmək, bayram əhval-ruhiyyəsi yaratmaq idi. Layihədə "Bakılı oğlanlar" Şən və Hazırcavablar Klubunun üzvləri də iştirak edir. Əslində, bu layihə ilə bağlı planlarımız vardı. Tanınmalı olduğumuz insanların layihəyə cəlb edilməsini planlaşdırırdıq. Lakin ötən il pandemiya səbəbindən metronun fəaliyyətində də bir sıra məhdudiyyətlər oldu və biz bu layihəni genişləndirə bilmədik. Ona görə bu il də 2019-cu ildə hazırlanmış layihə təkrar icra olundu. Bu, metropolitenin öz təşəbbüsüdür. Yəqin ki, növbəti ildə layihədə yeniliklər olacaq.



# 2022-ci ildə Avropa İttifaqı ilə saziş imzalanacaq

## Vüqar Bayramov: "Tərəflər arasındakı sazişdə şərtlərin çoxu razılaşdırılıb"



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) sədri Fərid Şəfiyev Avropa İttifaqı ilə Azərbaycan arasındakı yeni sazişin imzalanmasının gecikmə səbəbindən danışıb. Fərid Şəfiyev sazişin bəzi müddəaları ilə bağlı fikir ayrılıqları olduğunu deyib.**

Onun sözlərinə görə, problemli məsələlər arasında enerji qiymətləri, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü və s. məqamlar yer alıb: "Aİ Azərbaycandan istəyir ki, qazı daxili bazara satdığı qiymətə xarici bazara da satsın. Təbii ki, daxili bazar üçün Azərbaycan güzəştlər tətbiq edir. Bunu xarici bazara tətbiq etmək iqtisadi maraqlara zidd ola bilər. Aİ bu müddəalarla bağlı güzəştə getsə, saziş imzalanacaq. İnanıram ki, enerji məsələsi ilə bağlı Aİ tərəfindən müəyyən kompromis mümkün olacaq. Ancaq digər məqamla bağlı Azərbaycan tərəfindən tələblər var". Məlumat üçün deyək ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov sazişin gələn il yekunlaşa biləcəyinə ümid etdiyini deyib. Nazir qeyd edib ki, yeni saziş üzərində danışıqlar aparılır. Bu saziş əsasən dörd bölmədən ibarətdir. Siyasi təhlükəsizlik, ticarət, iqtisadi, sahəvi institusional inkişaf və digər məsələləri əhatə edir. Pandemiya ilə əlaqədar məhdudiyyətlərə görə danışıqlar prosesində müəyyən səngimə var idi. Ancaq ötən ilin iyunundan başlayaraq Aİ ilə Azərbaycan arasında Saziş üzrə intensiv danışıqlar gedir. Açıq qalan məsələlərin sayında azalma var. Hesab edirik ki, 2022-ci ildə bu sazişin yekunlaşdırılması mümkün olacaq". Xatırladaq ki, 1996-cı ildə Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq haqqında Saziş imzalanıb. Həmin Saziş 1999-cu ildə qüvvəyə minib. Sazişin 10 il müddəti var. Ancaq Sazişin şərtlərinə əsasən, yeni saziş imzalanmayanadək hər il avtomatik olaraq onun müddətinin uzadılması nəzərdə tutulur.

**Aİ və Azərbaycan arasındakı saziş və həlelik razılaşdırılmamış məqamlarla bağlı "Şərq"ə danışan millət vəkili Vüqar Bayramov deyib ki, tərəflər arasındakı sazişdə şərtlərin çoxu razılaşdırılıb. Deputat vurğulayıb ki, son illərdə aparılan müzakirələr 2022-ci ildə yeni sazişin nəhayət imzalana biləcəyi ilə bağlı əsas yaradır:** "Sazişdə razılaşdırılmayan məsələlərdən biri enerji sektoruna subsidiyalarla bağlıdır. Avropa İttifaqı enerji sektorunda subsidiyalaşmanın tərəfdarı deyil və bunun əleyhinə çıxır. Ona görə də təklif edir ki, enerji sektorundan subsidiyalaşma birdəfəlik çıxarılsın. Amma nəzərə alaq ki, bu sektora subsidiyaların verilməməsi enerji məhsullarının qiymətinin yüksəlməsinə gətirib çıxara bilər. Bu məqam Azərbaycan üçün həssas məqamlardan biridir. Digər məsələ - Ümumdünya Ticarət Təşkilatına üzvlüklə bağlı Azərbaycan uzun müddətdir müzakirələr aparır. Xeyli məqamlarla bağlı razılaşmalar da mövcuddur. Bu istiqamətdə ÜTT ilə birbaşa danışıqlar davam etdirilir. Bütövlükdə tərəflər fundamental məsələlərdə razılıq əldə ediblər. Razılaşdırılmamış məqamların sayı heç də çox deyil. Böyük ehtimal gələn il ərzində Aİ ilə Azərbaycan arasında yeni sazişin imzalanması mümkün olacaq".

İsmayıl Qocayev

# Sandunun əlinə bir də belə fürsət düşməyəcək

## Moldova prezidenti Rusiya-Ukrayna gərginliyindən istifadə edərək Dnestryanıya hərbi müdaxilə etmək üçün Qərb və ABŞ-la danışıqlar aparır



**Rusiya və Ukrayna arasındakı gərginlik Moldovada da yaxından izlənilir. Moldova Prezidenti Maya Sandu ötən gün Rusiya-Ukrayna gərginliyi ilə bağlı mətbuata açıqlama verərkən "vəziyyət çox ciddidir, prosesə təsir gücündə olan siyasi qüvvələr və təşkilatlar problemi dinc yolla həll etməyə çalışırlar.**

Ümid edirəm ki, bu yolu tapmaq olacaq və vəziyyət daha da pisləşməyəcək" deyib. Siyasi şərhçilərə görə, xanım prezident hər nə qədər mövcud vəziyyətdən narahat görünsə də, Rusiyanın Ukrayna məsələsinə fokuslanması Kişinyov üçün əvəzedilməz fürsətdir. Çünki Ukrayna kimi Moldova da Kremlin "mətbəx məhsulu" olan Dnestryanı münaqişə ilə mübarizə aparır. Moldovanın eks-prezidenti, Rusiyaya meyilli olması ilə xatırlanan İqor Dodonun hakimiyyətdən getməsi və yerinə qərbyönlü Maya Sandunun gəlməsi Dnestryanıda gərginliyin artması ilə müşahidə edilib. Sandu Kremlin Dnestryanı üzərindən Kişinyova təziq edəcəyini bildiyi üçün hakimiyyətə gələr-gəlməz Rusiyadan qoşunlarını bu ərazidən çıxarmasını tələb etdi. Prinsip etibarilə Sandu bu gün də bu tələbində israrlıdır, lakin Dnestryanıya hərbi müdaxilə edərək Kremllə üz-üzə gəlmək istəmir.

**Politoloq Turan Rzayev "Şərq"ə açıqlamasında deyib ki, Rusiya və Ukrayna gərginliyindən Sandu maksimum dərəcədə istifadə etməyə çalışır. Ekspert xatırladıb ki, bir müddət öncə ABŞ tarixin ən böyük təchizatını Yunanıstandakı Evros bölgəsində həyata keçirdi. Rəsmi Vaşinqtona məxsus min hərbi texnika, 120 yeni hücum helikopteri və 3 min amerikalı hərbçi Yunanıstana yerləşdirildi:** "Bu qüvvənin ehtimal olunan gərginlik halında Ukraynaya yardıma gedəcəyi bəllidir. Bundan başqa, Vaşinqton bu hərbi qüvvənin heç də hamısını Yunanıstana yerləşdirməyəcəyini, onların Bolqarıstan, Rumıniya və Moldovaya daşınacağını açıqlamışdı. Yəni rəsmi Kişinyov həm Kremlin başını Ukraynada qatmaq, həm də rəsmi Kiyevə dəstək vermək üçün ölkəsini ABŞ üçün açıq elan edir. Sandunun əsas hədəfi isə Ukrayna-Rusiya gərginliyinin artması fonunda hərbi əməliyyatla Dnestryanı bölgəni separatçılardan təmizləməkdir. Təsadüfi deyil ki, xanım prezident son açıqlamasında "biz də məlumat toplayır, təhlillər aparır və tərəfdaşlarla vəziyyəti müzakirə edirik. Əgər müharibə başlasa, bu bizə də təsir edəcək və regionda hamı üçün çətin vəziyyət yaranacaq" deyib. Sandu anlayır ki, belə fürsət Moldovanın əlinə bir də düşməyəcək. Buna görə də Rusiya-Ukrayna gərginliyindən istifadə edərək Dnestryanıya hərbi müdaxilə etmək üçün Qərb və ABŞ-la danışıqlar aparır".

İsmayıl Qocayev



**Dünən Bakı Dövlət Universitetində (BDU) görkəmli jurnalist, tanınmış ictimai və elm xadimi, ustad redaktor Nəsir İmanquliyevin 110 illik yubileyinə həsr olunmuş elmi konfrans keçirilib.**

Konfransda çıxış edən BDU-nun rektoru Elçin Babayev Nəsir İmanquliyevin həyat və yaradıcılığından, jurnalistika fəaliyyətindən söhbət açaraq, bugünkü Azərbaycan jurnalistikasının formalaşmasında N.İmanquliyevin əvəzsiz xidmətləri haqqında danışıb. Bildirib ki, sovet dövründə milli jurnalistika məktəbinin formalaşmasında, gənc jurnalistlərin yetişməsində özünəməxsus rol oynamış N.İmanquliyev böyük çətinliklər bahasına cəmiyyətin maariflənməsinə, eyni zamanda mətbuatın inkişafına öz töhfələrini verib. Sevindirici haldır ki, onun gördüyü işlər, həyata keçirdiyi tədbirlər, yetişdirdiyi ziyalılar bu gün də yaşayır. Bu isə onu deməyə əsas verir ki, Nəsir İmanquliyev öz əməlləri ilə əbədiyyət qazanıb. 1947-ci ildən Bakı Dövlət Universitetində pedaqoji fəaliyyət göstərən böyük ustad təxminən 50 ildən artıq bir müddətdə Azərbaycanda jurnalist kadrların yetişdirilməsinə böyük əmək sərf edib.

# Nəsir İmanquliyev BDU-da anıldı

## Ömrünün 50 ilini jurnalistikaya həsr edən alimin tələbələri xatirələrini söyləyiblər

Sonra BDU TV-nin Nəsir İmanquliyev haqqında hazırladığı videoçarx nümayiş olunub.

Daha sonra böyük alimin Jurnalistika fakültəsində dərs dediyi tələbələri və görkəmli jurnalistlər - Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri Cahangir Məmmədli, Milli Məclisin üzvü, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas, AZƏRTAC-ın İdarə Heyətinin sədr müavini Dağbəyi İsmayılov, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin Teleradio Akademiyasının rektoru Telli Pənahqızı, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Əməkdar jurnalist Flora Xəlilzadə, professorlar Qulu Məhərrəmli, Allahverdi Məmmədli, Əməkdar jurnalistlər İlqar Həsənov, Tahir Aydınoğlu, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, ustad sənətkarın yaradıcılığının tədqiqatçısı Şərəf Cəlilli çıxış ediblər. Çıxışlarda Nəsir İmanquliyevin ötən əsrin 60-90-cı illərində mətbuat tarixində böyük rol oynamış "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 ildən artıq baş redaktoru kimi fəaliyyətindən, qəzetin həmmüəllifləri sırasında Azərbaycanın bütün sahələrində fəaliyyət göstərən karifeylərin çıxış etməsindən, görkəmli alimin çoxsaylı xidmətlərindən, Nəsir müəllimin peşəkar jurnalist kadrlar yetişdirməsindən söz açılıb. Natiqlər N.İmanquliyevin elmi-pedaqoji, həmçinin qəzet redaktoru kimi fəaliyyətindən danışaraq, onun öz dövrünün bir çox jurnalistləri üçün yüksək nümunə olduğunu söyləyib, ədiblə bağlı xatirələrini bölüşüblər.



# Bayram günlərində sərhəddə təxribatlar gözləniləndir

## Ona görə Azərbaycan Ordusuna ciddi tapşırıqlar verilib

**Dekabrın 27-də Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Mərkəzi Komanda Məntəqəsində xidməti müşavirə keçirilib.**

Müşavirəyə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəisləri cəlb olunub. Azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik, birləşmə komandirləri, o cümlədən digər məsul zabitlər müşavirəyə videobağlantı vasitəsilə qoşulublar.

Müşavirədə dövlət sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə mövcud vəziyyət təhlil edilib. Nazir xidməti-döyüş fəaliyyətinin təkmilləşdirilməsini, xüsusilə qarşıdan gələn bayram günlərində ayıq-sayıqlığın artırılmasını əmr edib.

**Zakir Həsənovun işğaldan azad olunan bölgələrdə nəzarətin gücləndirilməsi ilə bağlı verdiyi tapşırıqların mahiyyətini "Şərq"ə açıqlayan siyasi ekspert Əlimusa İbrahimov bildirib ki, Ermənistanda revanşist qüvvələr mövcuddur və onların bayram günlərində belə bir təxribata əl atması gözləniləndir:** "Son hadisələr Azərbaycanın Ermənistan üzərində diplomatik sahədə qələbələri ilə nəticələnir. Bu gün keçirilən görüşlərdə və buna qədər Brüsseldə və digər yerlərdə Azərbaycan yeni-yeni uğurlara imza atır. Cəbhədə qazandığımız qələbələr diplomatik sahədə möhkəmləndirilir və burada Azərbaycan Respublikasının Prezidenti diplomatik sahədə öz diplomatiyasına yenə də sadiq qalır.

Eyni zamanda qarşıdan həm Yeni il, həm də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir - 31 dekabr. Bu iki hadisəni millətimiz və dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılar üçün qara günə çevirmək istəyən revanşist qüvvələr var. Təbii ki, başda ermənilər olmaqla həm Azərbaycanın diplomatik sahədə qazandığı uğurlara kölgə gətirmək, həm də qarşıdan gələn yeni formatda yeni qələbə qazanmış xalq olaraq, qələbə əhval-ruhiyyəsində keçirdiyimiz bayramı bizə çox görən düşmənlərimiz də var. Bütün bu hadisələrin qarşısını almaq üçün təbii ki, Ermənistanda gözləyən revanşist qüvvələr hərəkətə keçə bilərlər. Bu təxribatların qarşısını almaq üçün Azərbaycan əsgərini, ordusunu, generalını ayıq-sayıq olmağa çağırıb və lazım olan tapşırıqları verib. Bu, eyni zamanda qarşı tərəfə bir mesajdır ki, biz öz postumuzda möhkəmik və sizin törədə biləcəyiniz təxribatların qarşısını almağa hazırıq".

**Ekspert həmçinin bu kimi təxribatların sülh prosesini dayandıra bilməyəcəyini vurğulayıb:** "Danışıqlar prosesi artıq bir qatardır, yola çıxıb, gedir. Bu qatarın qarşısında müəyyən maneələr yaradıla bilər, gecikdirilə bilər, amma qatarı saxlamaq mümkün deyil. Ona görə ki, bütün dünya Azərbaycanın və Türkiyənin ortaya qoyduğu mövqeylə razılaşır və bu istiqamətdə Azərbaycan və Ermənistana istiqamət verirlər.

Paşinyan da bütün dünyanı fırlanıb gəldikdən sonra axırda Azərbaycanın dedikləri ilə razılaşmağa məcbur oldu. Bildiyimiz kimi, Soçiyə məcbur qalıb getdi, orada razılaşmalardan imtina etdi, razılaşmaq istəmədi. Avropada da, Brüsseldə Azərbaycana təsir və təzyiq olundu. Ancaq bütün bunlar alınmayandan sonra məhz elə Brüsseldən qayıdandan sonra Azərbaycan və Türkiyənin mövqeyi ilə razılaşmağa başladı. Hətta bu yaxınlarda qeyd etdi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsində olmalıdır. Bu mesajlar artıq Paşinyanın Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq lazım olduğunu başa düşdüyünü göstərir. Sadəcə, o, müxalifətdə olan ermənilərə birdən-birə bunu deyə bilmir. Çünki onun üçün çox böyük problem ola bilər. Nəticə olaraq, bu sülh prosesinə müəyyən təsirlər göstərilə bilər. Ancaq onun qarşısını almaq mümkün deyil".

Sənan İsmayıl

# Rusiyanın bir dərdi var

## Kreml anlayır ki, sülh sazişi imzalansa, qoşunları Qarabağı tərk etməlidir



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov 2021-ci ilin yekunlarına dair mətbuat konfransında bildirib ki, Ermənistanla sərhədlərin müəyyənləşdirilməsi istiqamətində işlərə başlamaq üçün Komissiyanın yaradılmasına bütün tərəflər razılıq verməlidir. O,Azərbaycan tərəfinin bu Komissiyanın yaradılmasına razılıq verdiyini vurğulayıb: "Qarşı tərəf də bu məsələnin ciddiliyini anlayır, ölkələr arasında beynəlxalq sərhəd müəyyənləşməlidir. Tezliklə qarşı tərəfdən bununla bağlı müsbət mesaj alacağımıza inanırıq. Ona görə düşünürük ki, yaxın aylarda bu Komissiya formalaşacaq".**

*"Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov tərəflər arasında sərhədlərin müəyyənləşməsi ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, Ermənistanda hakimiyyətdə olan qüvvələrin bir yox, bir neçə qrup tərəfdən idarə olunması bu məsələdə başlıca səbəbdir:*

"Burada həm Rusiyaya, həm də Qərbə bağlı qüvvələr, eyni zamanda, ultramilliyətçilər var. Belə qruplar təmsil etdikləri dövlətin maraqlarından çıxış edirlər. İndiki halda sülhün əldə olunması üçün faktiki olaraq nə İran, nə də Rusiyanın meyli var. Bunu Azərbaycan üzərindən həyata keçirə bilmədikləri üçün ən yaxşı variant kimi Ermənistan üzərindən icra edirlər. Hazırda rəsmi İrəvanın sülhə gəlməməsinin, sərhədlərin delimitasiya və demarkasiyasını ləngitməsinin əsas dayaq nöqtələri məhz bu maraq qruplarının əlində cəmləşib. Ona görə də Paşinyan bir addım atmağa çalışdıqda dərhal bu qruplar ona təzyiq edirlər".

S.Hümbətov tərəflər arasında sülhün olacağı təqdirdə, rus qoşunlarının burdan çıxmalı olacağını və buna görə də Rusiyanın bölgədə sülhün əldə edilməsinə hər yolla əngəl törədəcəyini bildirib: "Rəsmi Moskva kommunikasiyaların açılmasını, iqtisadi əlaqələrin qurulmasını istəsə də, sülh prosesini istəmir. Bütün bunları düşünən, müxtəlif dövlətləri təmsil edən maraq qrupları da bu və ya digər şəkildə həmin dövlətlərin maraqlarını təmin etmək üçün ya hakimiyyətə təzyiq göstərirlər, ya da hakimiyyətdəki qüvvələrin əli ilə manipulyasiyalar edirlər.

Sərhəddəki provokasiyalar, ölkə parlamentində hökumətə qarşı basqıların artırılması və s. Ermənistan hakimiyyətini Azərbaycanla sülh danışıqlarından çəkindirir".

Günəş Mərd

# NATO-nun Rusiyaya zərbə vuracağı cəfəngiyyatdır

## Əhəd Məmmədli: "Rusiya xalqın daxili narazılığını həmişə xarici düşmənlə sakitləşdirməyə çalışır"



**"Şimali Atlantika Alyansı Rusiya ilə genişmiqyaslı münaqişəyə hazırlaşır".**

**Bu barədə Rusiya Federasiyasının müdafiə nazirinin müavini Aleksandr Fomin xarici ölkələrin Moskvada akkreditasiya olunmuş hərbi attaşeləri üçün keçirdiyi brifinqdə bildirib.**

"Blokun hərbi quruculuğu bütövlükdə Rusiya ilə yüksək intensivlikli hərbi konfliktə yönəlib" deyə, Fomin əlavə edib.

Fomin vurğulayıb ki, NATO-nun doktrina sənədlərində, o cümlədən 2019-cu ilin hərbi strategiyasında Rusiya "koalisyon təhlükəsizliyə birbaşa təhlükə kimi göstərilir".

**Azərbaycanın şimal qonşusu ilə bağlı baş verən geosiyasi proseslər barədə "Şərq"ə danışan politoloq Əhəd Məmmədli bu bəyanatın Rusiyanın həmişəki siyasəti ilə bağlı olduğunu bildirib:** "Rusiya xalqın daxili narazılığını həmişə xarici düşmənlə sakitləşdirməyə çalışır və indi də bu siyasət davam edir. NATO-nun Rusiyaya qarşı genişmiqyaslı münaqişəyə başlaması cəfəngiyyatdır. Çünki NATO-nun başında duran ölkələrin 3-4-ü nüvə dərjavasıdır. Rusiya da nüvə dərjavasıdır. Yəni bu halda üçüncü dünya müharibəsinin başlanması deməkdir və heç bir ölkə buna getməz. Əgər həqiqətən də NATO Rusiyaya qarşı hərbi əməliyyatlara hazırlaşırsa və Rusiya bundan xəbərdardırsa, o, Şərqi Avropada hər istədiyini etməz. Rusiya istədiyini edir, ölkələrin ərazilərini işğal edir, anneksiya siyasəti yeridir və ona dur deyən yoxdur. Ona görə də müdafiə nazirinin bu çıxışı sırf daxili auditoriyaya hesablanıb və yaxud da ola bilsin ki, bununla Rusiya özünün Şərqi Avropada sərhədlərini genişləndirmək üçün qabaqdangələn bir hərəkət etmək istəyir".

**Politoloq həmçinin bildirib ki, NATO-nun yaradılma məqsədi sovetlər birliyinə qarşı mübarizə aparmaq idi:**

"SSRİ dağılandan sonra suallar doğdu ki, artıq biz neyləyək, fəaliyyətimizin alternativ mənası varmı? Amma bu hərəkat qaldı və təkcə Rusiya yox, Çinə qarşı da yönəlib. Bu dəqiqə Çin Rusiyadan daha güclü dövlətdir. Eyni zamanda NATO-nun özündə Fransa və Almaniyanın Rusiya ilə çox yaxşı münasibətləri var. Rusiyadan qaz ixracı ilə məşğuldurlar. "Şimal axını-2" kəməri fəaliyyətdədir və bu yöndə işlər görülür. NATO-nun da bir az mərkəzdən qaçma amilləri var. Ona görə indiki vəziyyətdə nəinki NATO, heç Amerikanın da Rusiyaya qarşı hansısa genişmiqyaslı əməliyyata başlayacağını düşünmürəm. Uzaqbaşı, Rusiya Ukraynaya müdaxilə etsə nə isə edərlər".

Sənan İsmayıl

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**İsmayıl Qocayev**

**Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının səmərəli şəkildə təşkil olunması hökumətin strateji hədəflərindən biridir. Torpaqlarımız düşmən işğalından azad ediləndən dərhal sonra Qarabağda sürətli bərpa-quruculuq işlərinə başlanılıb. Sistemli və genişmiqyaslı şəkildə həyata keçirilən tədbirlər nəticəsində qısa zaman ərzində kifayət qədər ciddi işlər görülüb.**

İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" Prezidentin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində də öz əksini tapıb. Nəzərə alaq ki, işğaldan azad olunmuş ərazilərimizdə məskunlaşma 4 mərhələdə aparılacaq. Birinci mərhələdə minalardan təmizlənmə, dəymiş ziyanın qiymətləndirilməsi, ikinci mərhələ isə infrastrukturun formalaşdırılması, həmçinin kommunal xidmətlərə əlçatanlığın təmin edilməsi üçün xüsusi şəbəkənin yaradılmasıdır. Üçüncü mərhələ sosial və və inzibati binaların inşa edilməsi, sonuncu - dördüncü mərhələ vətəndaşlarımızın dədə-baba yurdlarına qayıtması və məskunlaşmasıdır. İlk qayıdış prosesi, artıq bəlli olduğu kimi, Zəngilandan başlanacaq. Rayonun 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərinin ərazilərində "ağıllı kənd"lərin inşası artıq tamamlanıb. Artıq Zəngilana ilk olaraq köçürüləcək əhalinin siyahısı da hazırdır. Bu insanlar doğma kəndlərinə qayıtdıqdan sonra "ağıllı kənd" layihəsi çərçivəsində onlardan bir qrupu üçün kiçik təsərrüfatlar yaradılacaq. Bunun üçün müvafiq dövlət qurumları tərəfindən zəruri addımlar atılır. Əlbəttə, Azərbaycan üçün əsas prioritetlərdən biri Zəngilanla yanaşı, azad olunan digər ərazilərə də insanların qayıdışını təmin etməkdir. Amma bu xüsusda ən ciddi problemlərdən biri həmin yerlərdə mina təhlükəsinin mövcudluğudur. İndiyə qədər ərazilərin müəyyən hissəsi təmizlənsə də, hələ də zərərsizləşdirilməmiş xeyli sayda mina qalmaqdadır. Bütün çətinliklərə rəğmən, 2022-ci il ərzində "Böyük Qayıdış" prosesinin başlayacağı vurğulanır. Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov deyib ki, gələn il "Böyük Qayıdış"ın hazırlıq mərhələsinə keçiləcək. O bildirib ki, məcburi köçkünlərin qayıdışını təmin etmək üçün xüsusi İşçi Qrup fəaliyyət göstərir. Onlar Böyük Qayıdışın iqtisadi, sosial və hüquqi aspektlərini araşdırırlar. Növbəti il ərzində bu araşdırmalar uğurla yekunlaşacaq. Bizdə keçmiş məcburi köçkün statusu olan vətəndaşlarımızın siyahısı var. Onların içərisində hansı hissəsinin artıq dövlət tərəfindən evlə təmin olunduğu,



# Çox işlər görülüb, amma daha böyük işlər qabaqdadır

### "Böyük Qayıdış"dan sonra Qarabağda insanlarımızı elə bir həyat gözləyir ki, bütün çəkdikləri əziyyətləri unudacaqlar

hansının olunmadığı və müvəqqəti yaşayış yerlərində yaşadıqları barədə məlumatlar var. Hər bir rayon və şəhər üzrə Böyük Qayıdış prosesi başlayarkən bütün bunlar nəzərə alınacaq". Prezidentin köməkçisi qeyd edib ki, azad olunmuş ərazilərlə bağlı xüsusi Dövlət Proqramı hazırlanır: "Həmin proqramın hazırlanması prosesi bu yaxınlarda yekunlaşacaq. Proqramda nəzərdə tutulan tədbirlər gələn il həyata keçirilməyə başlayacaq. İşğaldan azad edilmiş ərazilərdə sosial, iqtisadi infrastrukturun yaradılması istiqamətində başlanmış layihələr davam edəcək, iş yerləri yaradılacaq. Vətəndaşlarımız üçün yaşayış massivinin salınması, kənd təsərrüfatı və sənaye sahələrində iş yerlərinin yaradılması ilə bağlı iş adamları, investorlarla layihələr həyata keçiriləcək. Ənənəvi sahələrlə yanaşı, həm də yeni innovativ, rəqəmsal iqtisadi fəaliyyət sahələrində kiçik, orta biznes nümayəndələri, startaplar üçün şərait yaradılacaq. İnsanlar qayıdandan sonra öz iqtisadi fəaliyyətlərini qurmaları və iş yerləri ilə təmin olunmaları üçün işlər davam etdiriləcək".

**İşğaldan azad edilmiş ərazilərimizə "Böyük Qayıdış"ın başlanması ilə bağlı "Şərq"ə danışan millət vəkili Cavid Osmanov bildirib ki, Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi ilə torpaqlarımızı düşməndən təmizlədi və ərazi bütövlüyümüzü bərpa etdi. Deputat vurğulayıb ki, müharibə bitəndən dərhal sonra Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa nəzarəti ilə işğaldan azad olunmuş ərazilərdə sürətli yenidənqurma və bərpa işlərinə başlanılıb:** "İşğaldan azad olunmuş ərazilərdə görülən ilk iş təhlükəsizliyin təmin edilməsi, ərazilərin minalardan təmizlənməsi ilə bağlıdır. Araşdırmalara görə, torpaqlarımızda 1 milyondan çox mina basdırılıb. Nəzərə alsaq ki, Ermənistandan alınmış mina xəritələrinin üçdə ikisi həqiqətə uyğun deyil, bunun necə böyük təhlükə olduğunu anlaya bilərik. Kifayət qədər geniş ərazilərin qarış-qarış minalardan təmizlənməsi həm böyük maliyyə, həm də uzun vaxt tələb edir. Təhlükəsizlik baxımından digər addımlar da atılır. Rayonlarımızda yeni hərbi hissələrin açılmasının şahidi oluruq. Şübhəsiz, bütün bunlarla paralel quruculuq işləri aparılır, yeni infrastruktur qurulur. Şuşa, Ağdam və digər şəhərlərin baş planları da təsdiqlənib. Məskunlaşmadan öncə rayonların enerji təminatı həyata keçirilir, yeni stansiyalar tikilir. Avtomobil yolları çəkilir, beynəlxalq hava limanları tikilir, su təchizatı həyata keçirilir. Yəni insanların normal həyatı üçün nələr tələb olunursa, ilk növbədə onların yaradılmasına diqqət yetirilir. 30 il ərzində doğma yurd-yuvalarından didərgin salınmış 1 milyona yaxın insan əzab-əziyyət çəkiblər. Ona görə də "Böyük Qayıdış"dan sonra Qarabağda onları elə bir həyat qarşılamalıdır ki, illərlə çəkdikləri əziyyətin qarşılığını artıqlaması ilə alsınlar. Sadəcə, Zəngilanın Ağalı kəndləri deyil, digər rayonlarımızda da yaşayış massivləri salınır, tikinti işləri gedir. Əslində biz "Böyük Qayıdış"a 2021-ci ildən başlamışıq. Ərazilərimizdə aparılan işlər də Qayıdışın tərkib hissəsidir və birinci mərhələsidir. Cənab Prezident özü də qeyd edib ki, mümkün qədər tez zamanda insanlarımızı öz rayonlarında məskunlaşdırmaq üçün bütün zəruri addımlar atılacaq. Çox işlər görülüb, amma daha böyük işlər hələ qabaqdadır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Çox yaşayın!

### Bəli, Qulu müəllim, xoşbəxtlik anlıq yaşantıdır



**Fakültə yoldaşlarımdan biri mənə xəbərdarlıq etmişdi ki, bu gün 15.35- də fakültəmizin (BDU Jurnalistika) professoru Qulu Məhərrəmlinin "Yeni alınma sözlər" kitabının təqdimatı olacaq. Birinci dərsim bitən kimi digər fənnin müəllimindən icazə alıb, təqdimatın baş tutacağı 300-cü auditoriyaya tərəf irəliləyirəm. Bir də görürsən ki, məzun olmuş tələbələrdən tutmuş, dərs saatı çoxdan bitən tələbələrədək dəhlizdə otağa tərəf irəliləyirlər.**

Saat 15:35 hamı səbəbkarı gözləyir. Və budur, xüsusi xarizması ilə seçilən Qulu müəllim otağa daxil olur.

Müəllim və tələbələr yavaş-yavaş yerlərini tuturlar. Gələnlər sırasında professor Nəsiman Yaqublu, dosent Vəfa Aslan, Allahverdi Məmmədli də var.

Çox keçmir ki, fakültəmizin elmi işlər üzrə dekan müavini Sevinc Əliyeva tədbiri giriş sözü ilə açır. O, professor Qulu Məhərrəmlinin təkcə tanınmış jurnalist yox, həm də dilçi-alim olduğunu bildirir, professorun yaradıcılıq yolundan danışır.

Sonra sözü Allahverdi Məmmədliyə verir. O da Qulu müəllim haqqında xoş sözlər deyir. Bildirir ki, vaxtında Qulu müəllimlə tələbə yoldaşı olublar. Qonaqlardan biri də Tərcümə Mərkəzinin rəhbəri, tanınmış şair Ramiz Rövşənin qardaşı Yaşar Əliyevdir. Yaşar bəy sözü alıb, lüğət tərtibatının çətinliklərindən danışır, bu işin nə qədər zəhmət tələb etdiyini vurğulayır. Elə bu anda Qulu müəllimin üzündəki təbəssümü duyuram. Hiss olunur ki, bu təbəssümüylə Yaşar bəyin dediklərini təsdiqləyir. Elə otaqda birinci diqqətimi cəlb edən Qulu müəllimin kitablarının düzüldüyü stend olur. Professorun uzun illər ərzində ərsəyə gətirdiyi kitablar barədə auditoriyada müxtəlif fikirlər eşidirəm və başa düşürəm ki, həqiqətən də Qulu müəllim ömrünü elm üçün elmə həsr edən alimlərdəndir. Bu anda televiziya müəllimimiz, həm də vaxtilə Qulu müəllimin də tələbəsi olmuş Samirə xanım sözü alıb sevimli "Radio və Televiziyanın əsasları" kitabının stenddə olmadığını qeyd edir.

Sevinc xanım qeyd edir ki, biz müxtəlif rayonlarda səfərdə olanda Qulu müəllim eşitdiyi, çox adama tanış olmayan frazeoloji birləşmələri balaca kağıza, salfetə yazıb qeyd edərdi. Dekan, Vüqar müəllim də Qulu müəllim haqqında xoş sözlər deyir. Bildirir ki, Qulu müəllimin "Məsəllər və deyimlər" barədə yazdığı kitabı, onun stolüstü kitablarındandır.

Tədbirin yekununda Qulu müəllim söz alır. Sözlərindən hiss olunur ki, o da fəxarət hissi keçirir. Bu fəxarət heç də təsadüfi hiss deyil. Özünün də dediyi kimi, indiyə qədər ərsəyə gətirdiyi hər kitab, o cümlədən, bu gün təqdimatına yığışdığımız "Yeni alınma sözlər" vəsaiti Qulu müəllimə övlad kimi əzizdir. Professor fürsətdən istifadə edib, həm də tələbələrə tövsiyə verir və bildirir ki, xoşbəxtlik, əslində, həyat tərzi deyil. Xoşbəxtlik anlıq yaşantıdır. Çalışmalıyıq ki, anlıq xoşbəxt yaşantılardan ömrümüzdə çox olsun. Xoşbəxt olmaq üçün cəsarətli olmaq lazımdır. "Təsəvvür edin ki, 1984-cü ildən bəri "Jurnalistika terminləri lüğəti" adlı üzərində işlədiyim kitab var. Bəlkə də növbəti xoşbəxtliyim o olar". Zarafatyana "ömür əl versə" deyib gülərək auditoriyanı canlandırır. Əslində bu da Qulu müəllimə xas xüsusiyyətdir. Çünki Qulu müəllimin həm də yaxşı yumor hissi var.

Elə bu an auditoriyadan müxtəlif səslər gəlməyə başlayır: "Əl verəcək, Qulu müəllim, yaradın, siz çox yaşayın".

Təqdimat bitir. Otağı tərk etmək bilməyən tələbələr və müəllimlər, planetlərin Günəş ətrafına toplandığı kimi Qulu müəllimin ətrafını sarırlar. Hər kəs şəkil çəkdirmək üçün öz sırasını gözləyir.

Qulu müəllim hamının ehtiyacı olduğu o Günəşdir.

İnanırıq ki, hər kəsin diqqətini cəlb edən 1984-cü ildən yazılan kitabı da tələbələrinizlə bölüşəcək, təqdimat keçirəcəksiz.

Uzaqda durub gəlib-çatmayan növbəmi gözləyirəm. Nəhayət, Qulu müəllimə tərəf yanaşıb, fotonu çəkdiririk. Bəli, Qulu müəllim, xoşbəxtlik anlıq yaşantıdır. Elə o fotodakı kimi. Siz çox yaşayın, yazın, yaradın. Cəmiyyətin Sizə ehtiyacı çoxdur!

**Ayan Rzayeva**



# Tehran normallaşan münasibətlərə yenə kölgə salır

### İran idmançılarının Azərbaycan torpaqlarındakı qanunsuz turnirdə iştirakı necə anlaşılmalıdır?!

**Qarabağdakı separatçı-terrorçu rejim dekabrın 28-də Xankəndidə MMA (qəfəs döyüşü -red) döyüşçülərinin iştirak edəcəyi "beynəlxalq turnir" təşkil edəcək. Turnirdə Xankəndidəki erməni idmançılarla yanaşı, Ermənistan və İrandan da qatılanlar olacaq. Separatçılar belə tədbirlərlə "hələ də nəfəs aldıqlarını" göstərməyə çalışırlar.**

Ermənistanın bu prosesdə dəstəyi də təəccüblü deyil. Ancaq İranın məhz indiki dövrdə yenidən separatçıların "idman yarışlarına" qatılması anlaşılan deyil.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə deyib ki, Xankəndinə qanunsuz yük daşınmasına görə gərginləşən İran-Azərbaycan münasibətləri yenicə düzəlməyə doğru gedirdi. Analitikə görə, iki ölkə arasında verilən bəyanatlar, imzalanan mühüm sazişlər əlaqələrin inkişafından xəbər verirdi:** "İndi İran idmançılarının Azərbaycan torpaqlarındakı qanunsuz turnirdə iştirakı necə anlaşılmalıdır?! Bunu idmançıların öz fəaliyyəti, yoxsa Tehranın "papaqaltı siyasəti" kimi başa düşməliyik? İran rəsmiləri idmançıların belə bir addımı özbaşına atdığını deyə bilər. Hərçənd, söhbət hər şeyin nəzarətdə saxlanıldığı İrandan gedirsə, bu çox da inandırıcı deyil. Digər yandan, İran yeni il ərəfəsində qonşu ölkələrlə sərhədlərini 15 gün müddətində bağlayır. İdmançılar Xankəndinə necə gedəcək, yaxud onlara getmələri üçün niyə əlahiddə şərait yaradılacaq? Yük daşımalarında məsuliyyəti özəl şirkətlərin üzərinə atan Tehran bu dəfə də eyni yolla cavab verməkdən yayınacaq. Bu, nə Bakı-Tehran xəttində normallaşma prosesinə, nə də İranın Azərbaycanın ərazi bütövlüyünə dəstək bəyanatlarına uyğundur. Görünür, Tehranda hələ də separatçılara dəstək strategiyasından əl çəkmək istəməyənlər var".

**İsmayıl**





# Pekresin Xankəndi səfəri

### "Bu, bir siyasətçinin beynəlxalq hüquqa hörmətsizliyidir"

**"Gələn ilin aprelində Fransada keçiriləcək prezident seçkiləri ilə bağlı namizədlərin marafonu manipulyativ gedişlərlə müşaiyət olunmaqdadır. Namizədlərin seçkiöncəsi Ermənistana səfərləri, bu azmış kimi Xankəndiyə edilən qanunsuz səfərlər də bunun göstəricisidir".**

"Şərq.az" xəbər verir ki, bu barədə millət vəkili Könül Nurullayeva bildirib. Xanım parlamentari qeyd edib ki, namizədlərdən biri - Valeri Pekresin yerli ermənilərin səsini qazanmaq məqsədi ilə Xankəndinə səfəri isə birmənalı şəkildə qanun pozuntusudur:

"Bu, həm Azərbaycanın ərazi bötövlüyünə, həm də Fransanda prezident olmaq iddiasında bulunan bir siyasətçinin beynəlxalq hüquqa hörmətsizliyidir. Bu, siyasətçi yox, əsl populist davranşıdır.

Cənubi Qafqazda yeni reallıqların yarandığı, sülh və əməkdaşlıq üçün yeni imkanların olduğu bir vaxtda Fransadan bu cür mövqe sülh prosesini pozur. Prezident İlham Əliyev də dəfələrlə qeyd edib ki, istənilən ölkənin seçimləri, dostları və qeyri-dostları ola bilər. Bu, onların öz işidir və burada biz heç nə deyə bilmərik. Lakin bir ölkə vasitəçi olması ilə bağlı ATƏT-in mandatına sahibdirsə, bu halda ölkə bitərəf olmalıdır. Biz 44 günlük Vətən Müharibəsi zamanı da Fransanın tərəf seçdiyini gördük. Dəfələrlə Fransa tərəfdən qondarma status və ya muxtariyyətlə bağlı əsassız iddialar səsləndi. Halbuki artıq Paşinyan istər Soçi, istərsə də Brüssel görüşlərində status məsələsinə toxunmamaqla yeni reallığı qəbul etdiyini təsdiqləmişdi. Bununla paralel olaraq bu cür üzdəniraq səfərlərə də imkan yaratmaqla isə növbəti ziddiyyətli addım atır. Aydındır ki, bu cür ziddiyyətli mövqe Paşinyanın necə deyərlər, köhnə adətidir. Yeri gəlmişkən, bu cür qanunsuz səfərlərdə təbii ki, Rusiya sülhməramlılarının məsuliyyəti məsələsi gündəmə gəlir. Onlar öz mandatlarının məsuliyyətini dərk etməlidirlər. Gözləri qarşısında baş verən qeyri-qanuni məsələlər onların vəzifələrinə uyğun fəaliyyət göstərmədiyi təəssüratını yaradır".



# "Övladlığa uşaq götürmə qaydaları yumşaldılmalıdır"

## Lalə Mehralı: "Uşaqların gələcəyini təhlükə altına atmadan bu məsələlərə baxılsa, daha yaxşı olar"

**Milli Məclisin ötən gün keçirilən iclasında müzakirəyə çıxarılan Ailə Məcəlləsinə dəyişiklik olunub. Azərbaycanda övladlığagötürmə ilə bağlı yeni qaydalar təsdiq edilib.**

Dəyişikliklə Məcəllənin 118.20-ci bəndi yeni redaksiyada verilir: "Uşağın övladlığa götürülməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış 3 gün müddətində hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın informasiya sisteminə ötürülür". Məcəllənin hazırkı bəndi isə belədir: "Məhkəmə uşağın övladlığa götürülməsi barədə qətnamənin qüvvəyə mindiyi gündən 3 (üç) gün müddətində bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur".

**Qərarı "Şərq"ə təhlil edən sosioloq, "Sağlam Cəmiyyət Hərəkatı"nın rəhbəri Lalə Mehralı bildirib ki, bu, qayda dəyişikliyi deyil. Sadəcə, burada bəzi sənədlərlə bağlı düzəliş olunub, elektron formaya keçid edilib. Sosioloq hesab edir ki, ümumiyyətlə, övladlığagötürmə prosesi olduqca məşəqqətli və çətindir:** "Bu proses həm də çox uzundur. Yaxşı olar ki, bu sahədə yenilik etsinlər. Bu, övladlığa uşaq götürmək istəyən şəxslər üçün də nisbətən əlçatan olar".

O, həmçinin, qeyd edib ki, bu sahənin ciddiliyini anlayır və dövlətin bu sahədəki ciddi addımlarının uşaqların gələcəyini təminat altına almaq üçün olduğunu bilir: "Proses mümkün qədər uzundur ki, daha əzmli olanlar və bütün problemlərin öhdəsindən rahatlıqla gələn şəxslər övladlığa uşaq götürə bilsin. Amma gəlin nəzərə alaq ki, bu proses çox uzun və incidicidir. Ona görə, ümumilikdə tələb olunan sənədlərə, standartlara yenidən göz gəzdirmək yaxşı olardı. Tək qadın və ya tək kişinin övladlığa uşaq götürməsi ilə bağlı məsələlərə yenidən baxılmalı olduğunu düşünürəm".

Sosioloq müəyyən şərtlər müqabilində övladlıq üçün müraciət edənlərin sayının artacağını düşünür: "Zənnimcə, bütün bunların fonunda qaydalar və şərtlər yumşaldılsa, övladlığagötürmə ilə bağlı böyük statistika ortaya çıxar. Müraciət edənlərin sayı da artar. Hesab edirəm ki, uşaqların gələcəyini təhlükə altına atmadan bu məsələlərə baxılsa, daha yaxşı olar".

**Çimnaz ŞAHLAR**

# Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub

### Azercell uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verməkdə davam edir

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-nin dəstəyi ilə Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub. Sayca VI Uşaq Paralimpiya İdman Oyunları bu il hər bir idman növü üzrə ayrı-ayrı yarışlar şəklində və karantin rejiminin tələblərinə uyğun olaraq keçirilib.**

Oyunlarda Bakı, Gəncə, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasından paralimpiyaçı uşaqlar iştirak ediblər. 13 noyabr-22 dekabr tarixləri arasında baş tutan VI Uşaq Paralimpiya İdman Oyunlarında ümumilikdə 5 idman növü üzrə 120-yə yaxın uşaq yarışıb.

Uşaqlar pauerliftinq, stolüstü tennis, cüdo, üzgüçülük və para-taekvondo idman növləri üzrə yarışlarda iştirak ediblər. Hər idman növü üzrə yarışlar müxtəlif kateqoriyalarda keçirilib. Nəticədə 70-dən çox uşaq fərqli dərəcələr üzrə qalib elan olunub.

Sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edən "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.

2021-ci ilin yayında Tokioda keçirilmiş Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan Milli komandalarının tərəfdaşı kimi çıxış edən "Azercell Telekom" MMC növbəti Uşaq Paralimpiya yarışmasının iştirakçılarını və qaliblərini təbrik edir, onlara gələcəkdə daha böyük uğurlar arzulayır.

# Bölgələrdə mobil internet problemi yaşanır

## Ramazan Seyidov: "Vətəndaşlara tövsiyə olunur ki, yazılı şəkildə müraciət eləsinlər kənd bələdiyyəsinə və ya aidiyyəti qurumlara və bununla da operatorlar gətirib orada baza stansiyalarını yeniləsinlər"




**Azərbaycanda, əsasən də bölgələrdə uzun müddətdir ki, internetlə bağlı problemlər yaşanır. Fiber-optik internetin ümumiyyətlə olmadığı, ADSL yəni telefon xətləri ilə verilən internetin isə bərbad gündə olduğu bölgələrdə mobil internetin vəziyyəti də digərlərindən fərqlənmir. Hazırkı dövrdə insanların işlərini, dərslərini və s. internetlə idarə etdiklərini nəzərə alsaq, vəziyyətin nə dərəcədə ciddi olduğunun fərqinə varmaq mümkündür.**

*Mövcud problemlə bağlı "Şərq"ə danışan informasiya texnologiyaları üzrə mütəxəssis Ramazan Seyidov bildirib ki, əsasən bölgələrin kəndlərində bu tip problemlər yaşanır:* "Orada mobil internetdən istifadə edən istifadəçilərin sayı az olduğu üçün həmin mobil operator şəbəkələrə maliyyə cəhətindən sərf eləmir ki, onlar gətirib ora 3G, 4G antena quraşdırsınlar. Digər səbəb isə vətəndaşların mobil operatorlara yazılı və ya çağrı mərkəzinə zəng edərək məlumat verməməsidir. Çünki mən çalışdığım müəssisədə bəzi yerlərdə bu problem var idi. Müraciət əsasında "Azercell", "Bakcell" hər ikisi də gətirib stansiya antenalarını yeniləyirlər. Daha texnoloji yeni avadanlıqlarla təmin edirlər.

Bakıda bizim ofislərimizin birində mobil internet çox zəif çəkirdi. Biz zəng elədik "Bakcell"ə ki, bizdə bu tip problem var. On gün sonra mühəndisləri gəldi, 20 gün sonra da gətirib yeni antena quraşdırdılar və problem həll olundu. Sadəcə, vətəndaşlar yazılı və ya çağrı mərkəzinə zəng edərək müraciət eləsinlər. Güman edirəm ki, mobil operatorlar buna biganə yanaşmayacaqlar. Çünki mobil operatorlara bu, yeni müştəri deməkdir".

Mən əsasən "Bakcell" və "Azercell"i örnək olaraq deyirəm. Çünki əsasən onların internet və data şəbəkəsindən biz istifadə edirik. Onlar da bizim sorğularımıza tam adekvat cavab verirlər. Yenə də vətəndaşlara tövsiyə olunur ki, yazılı şəkildə, məktubla müraciət eləsinlər kənd bələdiyyəsinə və ya aidiyyəti qurumlara və bununla da operatorlar gətirib orada baza stansiyalarını yeniləsinlər".

**Sənan İsmayıl**

**Elan**

Mirzəyeva Sevinc Rəhim qızının adına "Zəfər Ko" MMC-nin Bakı şəhəri, N.Nərimanov r-nu, Ə.Əliyev küç. bina 1, 73 №-li mənzilə aid qarajın maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

M.V.Lomonosov adına Moskva Dövlət Universiteti tərəfindən Əliyeva Elmira Bəxtiyar qızının adına verilmiş Diplom AAN 1514346 itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

# Məktəblərdə kişi müəllimlərinin sayı çox azdır

## Nadir İsrafilov: "Gələcəkdə Milli Məclisdə kişiləri müəllim olmağa stimullaşdıran qərarlar qəbul ediləcək"

**Dekabrın 27-də Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib. Cari məsələlərlə bağlı çıxış edən deputatlar bəzi aktual məsələlərə toxunublar. Millət vəkili Məlahət İbrahimqızı məktəblərdə qadın müəllimlərin çoxluğundan narahatlığını ifadə edib. Onun sözlərinə görə, bu gün orta məktəblərdə müəllimlərin mütləq əksəriyyəti qadındır.**

Oxşar fikirləri Təhsil naziri Emin Əmrullayev də səsləndirib. Nazir vurğulayıb ki, qadın müəllimlərin sayı çoxdur. E.Əmrullayevin fikrincə, kişi müəllimlərin sayını artırmaq lazımdır.

Qeyd edək ki, Azərbaycan məktəblərində müəllimlərin 71 faizini xanımlar, 29 faizini isə kişilər təşkil edir.

**Kişi müəllimlərin az olmasının səbəblərini "Şərq"ə açıqlayan təhsil eksperti Nadir İsrafilov bildirib ki, bu məsələ diqqət mərkəzində saxlanılır:** "Həqiqətən də kişi müəllimlərin məktəbdə sayı azlıq təşkil edir. Lakin bu statistika yalnız Bakı şəhəri üçün keçərlidir. Regionlarda belə bir problem, demək olar ki, yoxdur.

Bir sıra ekspertlər təhsil müəssisələrində kişilərin qadınlardan az olmağının səbəbini gender



bərabərsizliyi ilə, əməkhaqqı ilə əlaqəndirirlər.

Bu məsələdə maddiyyat əsas faktordur. Görünür ki, məktəb müəllimlərinə verilən əməkhaqları qane etmədiyi üçün repetitorluqla məşğul olurlar.

Ümumilikdə isə təhsil işçilərinin əməkhaqlarının artırılması istiqamətində müvafiq addımlar atılıb. Gələcəkdə Milli Məclisdə kişiləri müəllim olmağa stimullaşdıran qərarlar qəbul ediləcək".

**Xanlar ƏLİBƏY**



# Bakı "gölməçələr şəhəri" imicindən qurtulmalıdır

## Elçin Bayramlı: "Korrupsiya hallarının fəsadlarından çox əziyyət çəkirik"

**Hər yağışdan sonra Bakıda gölməçələr, palçıqlı yollar, tıxaclar müşahidə olunur.**

Yağmur və çirkab sularının bir-birinə qarışması əhali üçün çətinliklər yaradır. Şəhərin mərkəzindəki "Axar çay"ların yaratdığı problemlər nəticəsində nə piyadalar, nə də avtomobillər yolu keçib gedə bilirlər. Nəticədə avtomobil yollarında sıxlıq müşahidə olunur. Bakıətrafı qəsəbələrdə isə yağışın fəsadları daha ciddidir. Bakının bəzi kəndlərində su basma halları baş verir, böyük gölməçələr yaranır. Sakinlər yağışlı havalarda evdən çıxmamağa çalışırlar.

**Bakının dərdinə çevrilən gölməçələrlə bağlı "Şərq"ə danışan "Sağlam Cəmiyyət Hərəkatı"nın eksperti, sosioloq Elçin Bayramlı bildirib ki, qurumlara peşəkar mütəxəssislər təyin olunmadığı üçün problemlər həll edilmir:** "Neçə illərdir, yollarda gölməçələrin yaranmasının qarşısını almaq üçün təkliflər verilir, lakin heç bir dəyişiklik görmürük. Əksinə, vəziyyət daha da pisləşir. Çünki tikinti və yenidənqurma şəhərin baş planına uyğun aparılmır. Bu da həmin sahə üzrə çalışan insanların qeyri-peşəkar olmağından qaynaqlanır. İşəgötürmə zamanı qohumluq prinsipi əsas götürüldüyü müddətcə gölməçələr qalmağa davam edəcək. Nəticədə həmin qurumlara ayrılan milyonlarla pul da batır. Düzgün olmayan kadr seçiminin, korrupsiya hallarının fəsadlarından çox əziyyət çəkirik. Artıq bu problemi həll etmək çox çətin olacaq".

**Xanlar ƏLİBƏY**

# Medalların sənədləri, vəsiqələri olur

## Müxtəlif təşkilatların orden və medallar hazırlaması doğru deyil

**"Azərsuvenir" MMC-nin keçmiş məsul əməkdaşı Bağırov Aydın Kamil oğlu barəsində Bakı şəhəri Yasamal Rayon Məhkəməsində cinayət işi üzrə məhkəmə baxışı yekunlaşıb. İkinci Qarabağ müharibəsindəki tarixi qələbə münasibəti ilə təsis edilmiş müxtəlif orden və medalların, həmçinin digər dövlət təltiflərinin aidiyyəti olmayan şəxslərə satışını təşkil etdiyinə görə Aydın Bağırovu Dövlət Təhlükəsizliyi Xidməti cinayət məsuliyyətinə cəlb edib.**

Belə ki, Aydın Bağırov qeyd olunan MMC-də orden və medalların hazırlanmasında texnoloji və keyfiyyət üzrə nəzarətə cavabdeh şəxs kimi vəzifə səlahiyyətlərindən sui-istifadə edib. Şuşanın, Suqovuşanın, Kəlbəcərin, Qubadlının, Zəngilanın, Füzulinin, Laçının, Ağdamın, Xocavəndin, Cəbrayılın azad olunmasına görə, "İgidliyə görə" medalları, "İstiqlal" ordeni, "Azərbaycan Bayrağı" ordeni, "Rəşadət" ordeni, digər orden və medalların saxta nümunələrini hazırlayıb. Müəssisə ərazisindən kənara çıxarıb pul müqabilində satılmasını həyata keçirib.

**Saxta orden və medalların verilməsi barədə "Şərq"ə danışan "Qarabağ qaziləri" İctimai Birliyinin sədri Asəf Əliyev bildirib ki, bəzi ictimai təşkilatlar medallar düzəltdirib, üzvlərinə paylayır. Bu, doğru deyil:** "Orden və medalları prezidentin sərəncamı ilə Müdafiə Nazirliyi verir. Məsələn, Birinci Qarabağ müharibəsində iki fərqlənmə nişanı olub. "Milli Qəhrəman" medalı və "Azərbaycan bayrağı" ordeni. "Milli qəhrəmanlar" ordeninin sayı təxminən 250-dən, "Azərbaycan bayrağı" ordeni isə təqribən 150-dən



çox olub. İndi isə hər rayonun alınması ilə bağlı medallar mövcuddur".

**A.Əliyev qeyd edib ki, belə hallarda orden və medallar sifariş əsasında hazırlanır:** "Təltif edilən medalların sənədləri, vəsiqələri olur. Vəsiqələrdə ad, soyad, ata adı yazılır. Həmçinin məsələn, "Füzuli rayonunun işğaldan azad olunmasında yaxından iştirak edib. Füzulinin alınma medalı ilə təltif olunur" kimi tərtib edilir. Sonra isə Azərbaycan Respublikasının Ali Baş Komandanının imzası çəkilir. Biz də ictimai təşkilatıq. Hələ indiyə qədər döş nişanı belə hazırlatmamışıq. Vaxtında müraciət etdik. Medalların verilməsi ilə bağlı müraciətimizi aidiyyəti qurumlar qəbul edib. Bildirilib ki, vaxt gələr, sizlərə də müharibə iştirakçıları kimi medallar verilər. Zaman gəlib, ordumuz torpaqları işğaldan azad edib. Zəfər çaldıq. Yəqin ki, medallardan bizə də verilər".

**Sücayət Mehti**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2810



## Marselo karyerasını başa vurmağa hazırlaşır

**İspaniya "Real Madrid"inin futbolçusu Marselo peşəkar karyerasını başa vurmağa hazırlaşır.**

"Report" "Marca"ya istinadən xəbər verir ki, braziliyalı müdafiəçi 2022-ci ilin yayında "kral klubu"ndan yeni müqavilə təklifi almasa, futbolla vidalaşacaq.

33 yaşlı oyunçu başqa komandanın formasını geyinmək istəmədiyi üçün bu addımı atmaq niyyətindədir.

*Qeyd edək ki, 2007-ci ildə "Real Madrid"də çıxış edən Marselo bu mövsüm cəmi 5 oyunda meydanda olub.*

## Məşhur "Buz otel"i yenidən açılır

Hər şey - mebel, qab-qacaq, çilçıraq, dekor, bar - buzdan hazırlanır



**İsveçin məşhur buz oteli Icehotel Sweden yenidən açılıb. İsveçin Yukkasarvi kəndində yerləşən bu qeyri-adi yaşayış obyekti ənənəvi olaraq qış mövsümündə açılır. Hər şey - mebel, qab-qacaq, çilçıraq, dekor, bar - buzdan hazırlanır.**

Aviatravel.az bildirir ki, bu qış otelin interyerində dondurulmuş çiçəklərin dekorasiyası ilə seçilir. Canlı bitkilər binanın divarlarının tikildiyi buz bloklarının içərisində idi. Icehotel-də ənənəvi əyləncələr buz kilsəsinə baş çəkmək, dondurulmuş balıq və ya ətin buz boşqablarında verildiyi qar barı, buz stəkanlarına spirt tökülməsi, buz heykəlləri sərgilənir.

Havanın temperaturu + 5 ° C olan otaqlarda qoyun dəriləri olan çarpayılar, kiçik qızdırıcısı var. Oteldə səhər yeməyi və isti şərab da verilir, eyni zamanda sauna da mövcuddur.

## İbrahim Çelikkol boşanır



**Aktyor İbrahim Çelikkol həyat yoldaşı Mihre Çelikkoldan ayrılıb.**

**Axşam.az xəbər verir ki, cütlük 4 illik evliliklərini bitirmək üçün artıq məhkəməyə müraciət edib. İddialar barədə ikili həlelik hər hansı açıqlama verməyib.**

**Qeyd edək ki, İbrahimlə Mihrenin bu evlilikdən Ali adlı bir oğlu var.**

**İbrahim hazırda "Bir zamanlar Çukurova"da baş rolu ifa edir.**

## Cennifer makiyajsız halı ilə təəccübləndirdi





**Hollivud aktrisası və müğənnisi Cenifer Lopez makiyajsız halda fotolarını yaymaqla internet istifadəçilərini sevindirib.**

**Milli.Az xəbər verir ki, onun İnstaqramdakı fotolarını Daily Mail öz səhifəsində yerləşdirib. Nəşrin oxucuları Lopezin təbii görünüşünə heyran qalaraq, onun haqqındakı materialın altında çoxsaylı şərhlər yazıblar. "O, makiyajlı və ya makiyajsız eyni görünür - heyrətamiz", "Mükəmməl", "52 yaşına görə heyrətamiz görünür", "Onun makiyaja ehtiyacı yoxdur!"- yazıblar.**

## "Apple" Nyu-Yorkdakı mağazalarını bağladı

Şirkət müştərilərin onlayn alış-veriş edəcəyini bəyan edib



**"Apple" şirkəti "Omicron" variantına görə yoluxma hallarının artdığı Nyu-Yorkdakı bütün mağazalarını bağlamaq qərarına gəldi.**

**"Şərq" bildirib ki, "Apple" sözçüsü müştərilərin onlayn alış-veriş edə biləcəyini bildirib:**

**"Biz mütəmadi olaraq şərtləri izləyirik, müştərilərin və işçilərin rifahını dəstəkləmək üçün həm sağlamlıq tədbirlərimizi, həm də mağazadaxili xidmətlərimizi qaydaya salacağıq".**

**Koronavirusa yoluxma hallarının artması səbəbindən bütün işçilərdən və müştərilərdən ABŞ-dakı "Apple" mağazalarında maska taxmaq tələb olunub.**

**Cəmilə ƏZİM**








# Taxta avtomatlarla savaşa!

## Dünya "ağzı açıq" izləyir

**Məlahət Rzayeva**

**Rəsmi Kiyev mülki əhalini hərbi təlimlərə cəlb edir. "Milliyet.com" yazır ki, Rusiya-Ukrayna müharibəsinin hər an başlana biləcəyi ehtimalları artdığı bir vaxtda "müharibə olarsa, iştirak edəcəksinizmi" sualı ilə keçirilən sorğudan heyrətli nəticələr ortaya çıxıb.**

*Ukraynada könüllülərin təliminə başlanılıb*

Ukrayna əhalisinin 24 faizi silaha sarılacağını, kişilərin 39 faizi silahlı mübarizə aparacaqlarını deyib. Ukraynalılar əllərində silah selfi çəkdirir, sosial mediada paylaşırlar. Bununla da işğalçılara "biz burdayıq, gələcəyiniz varsa, görəcəyiniz də var" deyirlər. Ukraynada könüllülərin təliminə başlanılıb. Amma taxta silahlarla. Əllərində taxta silah hərbi təlimlərə qatılan Ukrayna qadınlarının fotoları "New York Times" qəzetinə də gedib çıxıb. Fotoları paylaşan qəzet Ukraynada könüllülərə təlim keçirilməsinin Rusiya qarşısında önəmli faktor olduğunu yazır. Agence France-Presse (AFP) də taxta silahlı Ukrayna könüllülərinin fotolarını yayıb. Hərbi təlimlər Kiyev yaxınlığındakı şam meşəliyində keçirilir. Taxta silahlı olsa da əsl savaş abhavası yaşanır. Komandirlər əmr verir, kamuflyaj olunmuş könüllülər ağacların arxasında gizlənir, əsgərlər bağıraraq yerə yıxılır... 25 yaşlı Anastasiya Biloçitska atəş xəttinə yürüyür, palçığa batır və tibbi yardım çantasını açıb əsgərə yardım göstərir. Anastasiya "hazırlıqlı insan təşvişə düşməz" deyərək təlimlərin əhəmiyyətli olduğunu söyləyib. Təlim proqramı Rusiyanın mümkün hücumuna hazırlıq və təhlükəsizlik planının bir parçasıdır. Məqsəd, ordu məğlub olarsa, döyüşü mülki əhalinin davam etdirməsi və direniş göstərməsidir. Bununla Ukrayna ABŞ-ın İraq və Əfqanıstandakı məğlubiyyətindən dərs çıxardığını



göstərmək istəyir. Yəni ölkədaxili gücünə güvənməli olduğunun fərqindədir. Təlimlərdə iştirak edən həkim Martya Yuzkiv "güclü ordumuz var, ancaq Rusiyaya qarşı müdafiə olunacaq qədər güclü deyilik. İşğal edilsək, ümid edirəm, bu olmaz, milli müqavimət göstərəcəyik", deyib. Avropa mətbuatı isə xatırladır ki, Rusiya təhdidinə qarşı vaxtilə Estoniya, Litva və Latviya da mülki əhaliyə partizan savaşı aparmaq təlimləri öyrədən proqram hazırlamışdı.





# 3 min 500 illik Misir fironu!

## Mumiyanın əla qorunub saxlanması görənləri heyrətə salır

**Misir fironu Amonhutepin mumiyalanmış cəsədi ilk dəfədir ki, sərgilənir. 3 min 500 il keçsə də mumiyanın əla qorunub saxlanması görənləri heyrətə salır. Amonhutepin mumiyalanmış cəsədi Misirin Luksor şəhəri yaxınlığındakı bir məzarlıqda kəşf edilib.**



XİX və XX əsrlərdə aşkarlanan Misir krallarının mumiyaları açılıb tədqiqat obyekti olmalarına baxmayaraq Amonputepin mumiyası açılmayıb. Daha doğrusu, onu açmaqdan çəkiniblər. Çünki mumiya o qədər mükəmməl sarınıbmış ki, tədqiqatçıların sarğını pozmağa əlləri gəlməyib. Amonhutepin mumiyası kompüter tomoqrafiyası ilə, rəqəmsal olaraq tədqiq edilib. Rəqəmsal texnologiya sayəsində Misir kralının yaşı və 3 min 500 il əvvəlki siması, bədən quruluşu haqqında məlumat və görüntü əldə etmək mümkün olub. Tədqiqatlar Misir kralının dəfni ilə bağlı da heyrətamiz məlumatlar üzə çıxarıb. Qahirə Universitetinin Qəsr-Əl Ainy Tibb fakültəsinin radioloqu Səhər Salam "kompüterlə tədqiqat Amonhutepin üzünü ilk dəfə ortaya çıxardı. Misir kralının boyu 1.67 metr olub. Üzü ovalşəkilli, çənəsi və burnu dar, çıxıntılı dişləri, sırğa üçün dəlik olan sol qulağı var. Mumiyada muncuqlarla bəzədilmiş qızıl kəmər var. Kətan sarğıların altında 30 muska (dua) görünür", deyib. Amonhutepin cəsədi 400 il sonra rahiblər tərəfindən yenidən mumiyalanaraq təkrar dəfn edilib. Buna səbəb məzar soyğunçularının qarşısını almaq olub.

**Məlahət**

## Alimlər açıqladı

"Məktəbli forması şagirdin davranışına və davamiyyətinə müsbət təsir göstərmir"



**Məktəbli forması şagirdin davranışına və davamiyyətinə müsbət təsir göstərmir. Eyni zamanda bu geyimdə uşaqların təhsil ocağına, pedaqoqlarla ünsiyyətdə bağlılıq hissi azalır.**

"Report" xəbər verir ki, bu qənaətə ABŞ-ın Ohayo və Pensilvaniya universitetlərinin alimləri gəliblər.

Məlumata görə, araşdırmada 6 min məktəbli iştirak edib. Ən böyükləri beşinci sinif şagirdləri olub.

Psixoloqlar üç parametri qiymətləndiriblər: sosial bacarıqlar, uşaqların daxili (təşviş, özünəqapanma) və xarici (aqressiya, dağıdıcılıq) davranış problemləri. Alimlər davamiyyət jurnallarını da təhlil ediblər.

"Davranış baxımından, uniforma tələb olunan məktəblərlə digər təhsil ocaqları arasında ciddi fərq yoxdur", - araşdırmanın aparıcı müəllifi Arya Ansari bildirib.

Onun sözlərinə görə, aztəminatlı ailələrdən çıxan uşaqların uniforma tələb edilən məktəblərdə davamiyyəti daha yaxşıdır. Ancaq bu fərq minimaldır - ildə bir gün daha çox. A.Ansari uşaqlarda uniformanın təhsil ocağına aidiyyət hissini azaltmasına belə aydınlıq gətirib: "Yeniyetmələr dəbli görünmək, özlərini ifadə etmək istəyirlər. Onlar individuallıqlarından məhrumdurlarsa, özlərini önəmsiz hiss edirlər".

## Dənizdə üzən elmi-tədqiqat mərkəzi...

Sunami dalğalarının gücünü və onun nəticələrini öyrənmək mümkün olacaq



**Bu yaxınlarda Amerikanın "Solus4" memarlıq və dizayn studiyası "İndoneziyanın Bali şəhərindəki Elmi-Tədqiqatlar Mərkəzinin Hind okeanında zəlzələ və sunami hadisələrinin öyrənilməsi" layihəsi üzrə beynəlxalq müsabiqənin qalibi olub.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, suda üzən və sahəsi 2500 kvadratmetr təşkil edən mərkəz vasitəsilə sunami dalğalarının gücünü və onun nəticələrini öyrənmək mümkün olacaq.

Məhsuldar iş və xoş istirahət üçün hər şeylə təmin olunan mərkəzdə sualtı laboratoriya, sinif otaqları və sualtı bağ, dəniz suyu olan hovuz, terras, bar, eləcə də konfransların və görüşlərin keçiriləcəyi zal fəaliyyət göstərir.